
KHAZAR REVIEW

№ 372 Aprel 2018

XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

















Ardı səh. 14-17-də *To be continued on page 14-17*

İÇİNDƏKİLƏR

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi plenumunun qərarı 4
Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin növbəti təlimi 6
Universitet xəbərləri 10
"Xəzər"də Azərbaycan V Beynəlxalq Psixologiya Konfransı 14
"Dünya" xəbərləri 18
Xəzər Universitetinin nümayəndəsi 21-ci Avrasiya Zirvə Toplantısında 23
Professor Hamlet İsaxanlının yubileyinə həsr olunmuş "Xəzər"in
sorağında" adlı ədəbi-bədii tədbir 28
Xəzər Universitetində "Qloballaşan Təhsil" Beynəlxalq Simpoziumu 33
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri 36
"Miqrasiyanın İqtisadi və Sosial Aspektləri: Çağırışlar və Miqrasiya
Siyasəti" mövzusunda seminar-təlim 40
"The Same" komandasının təqdimatı 44
Hamlet İsaxanlı. Hekayənin mahiyyəti və yazarın xəyalları 50
"Xəzərşünaslıq" fənni tələbələri üçün ekskursiya 57
"Xəzər"in əməkdaşlarının məqalələri xaricdə çap olunub 58
"Xəzər"in əməkdaşları ölkə və xarici simpoziumlarda 62
"Xəzər"in əcnəbi tələbəsi təqdim edir 66
Yukio Misima. Vətənpərvərlik (*hekayə*) 66

1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Əjdər Ağayev
Afiə Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Eyvaz Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

Xəzər Universiteti
1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Ajdar Aghayev
Afia Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eyvaz Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre



2018-Cİ İL APRELİN 11-DƏ KEÇİRİLMİŞ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏSDİQ VƏ RƏSMƏN ELAN EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN

QƏRARI

BY THE PLENARY SESSION OF THE CONSTITUTIONAL COURT OF THE REPUBLIC OF AZERBAIJAN ON THE APPROVAL AND OFFICIAL RECOGNITION OF THE RESULTS OF THE PRESIDENTIAL ELECTIONS HELD ON APRIL 11, 2018, IN THE REPUBLIC OF AZERBAIJAN

DECISION

1. 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2018-ci il 15 aprel tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

3. Qərar elan olunduğu andan qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Sədr Fərhad Abdullayev

17 aprel 2018-ci il
Bakı şəhəri

1. The results featured in the protocol of the Central Election Commission of the Republic of Azerbaijan of April 15, 2018, on the presidential election held in the Republic of Azerbaijan on April 11, 2018, shall be approved.

2. Ilham Aliyev, the candidate for the Presidency of the Republic of Azerbaijan, shall be declared the President of the Republic of Azerbaijan.

3. This verdict of the Constitutional Court comes into force on the date of its announcement.

4. The Decision shall be published in the newspapers "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" and in "Review of the Constitutional Court of the Republic of Azerbaijan".

5. The Decision is final and cannot be abolished, amended, or officially interpreted by any body or official."

Chairman Farhad Abdullayev

April 17, 2018
Baku city

"XƏZƏR"DƏ İMTAHAN HƏYƏCANLARI

EXAMS THRILL AT KHAZAR UNIVERSITY











AVRASİYA HASİLAT SƏNAYESİ BİLİK MƏRKƏZİNİN NÖVBƏTİ TƏLİMİ

Martın 29-dan aprelin 6-dək Xəzər Universitetində Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin növbəti təlimi keçirilmişdir. Təlim "Təbii sərvətlərin davamlı inkişafa transformasiyası" mövzusuna həsr olunmuşdu. Təlimdə Avrasiya regionunun 6 ölkəsindən – Qazaxıstan, Qırğızıstan, Tacikistan, Monqolustan, Ukrayna və Azərbaycandan 30 nəfər iştirak edirdi. İştirakçılar hökumət, vətəndaş cəmiyyəti, media və özəl sektorun təmsilçiləri idi.

Təlimi ABŞ-ın tanınmış eksperti Patrick Heller və Avrasiya Bilik Mərkəzinin mütəxəssisləri aparmışlar.

Aprelin 2- də təlim çərçivəsində Avrasiya Bilik Mərkəzi Açıq Büdcə Sorğusunun 2017-ci il nəticələrinə həsr olunmuş forum təşkil etmişdir. Dövlət strukturları, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatların nümayəndələri ilə birgə təlim iştirakçıları da foruma qatılmışdılar.

(Ardı səh. 8-də)







NEXT TRAINING OF THE EURASIA EXTRACTIVE INDUSTRIES KNOWLEDGE HUB

On March 29 – April 6, Eurasia Extractive Industries Knowledge Hub held the next training on "Transformation of natural resources in sustainable development" at Khazar University. The training session was attended by 30 participants from 6 countries of Eurasia (Kazakhstan, Kyrgyzstan, Tajikistan, Mongolia, Ukraine and Azerbaijan) who represented governments, civil societies, the media and private sector.

The training was run by Patrick Heller, prominent American trainer, and experts of Eurasia Knowledge Hub.

On April 2, a forum dedicated to Open Budget Survey 2017 of Eurasia Knowledge Hub was held within the framework of the training. Along with training participants, government officials and representatives of civil societies and international organisations participated in the forum.

(To be continued on page 9)











Forumda Avrasiya Bilik Mərkəzinin direktoru İngilab Əhmədov öz çıxışında Açıq Büdcə Sorğusunun mahiyyətindən və detallarından bəhs etmişdir. Ekspertlər - Ukraynadan Volodimir Tarnay, Rusiyadan Andrey Alayev və Azərbaycandan Azər Mehtiyev sorğuda öz ölkələrinin göstəricilərindən və bu göstəricilərə təsir edən faktorlardan danışmışlar.

8 gün davam edən təlimdə iştirakçılar yerli və beynəlxalq ekspertlərin mövzuya dair təqdimatlarını dinləmiş, Dövlət Neft Fondunda olmuşlar.

Aprelin 5-də təlimin bağlanış mərasimində İsveçrənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Philipp Stalder, Xəzər Univeritetinin rektoru Hassan Niknafs, Avrasiya Bilik Mərkəzinin direktoru İnqilab Əhmədov və NRGİ Avrasiya təmsilçisi Qalib Əfəndiyev çıxış etmiş, təlim müddətində əldə olunan bilik və təcrübənin ölkələrin rifahı naminə istifadə olunacağına inandıqlarını vurğulamışlar. Sonda iştirakçılara sertifikat təqdim olunmuşdur.









Ingilab Ahmadov, Director of Eurasia Knowledge Hub, talked about the essence and details of Open Budget Survey. Experts - Volodimir Tarnay (Ukraine), Andrey Alayev (Russia) and Azar Mehtiyev (Azerbaijan) delivered reports on indicators related to their countries as well as factors affecting these indicators.

During 8-day training, national and international experts delivered reports on the topic and visited State Oil Fund.

On April 5, Philipp Stalder, Swiss Ambassador to Azerbaijan, Hassan Niknafs, Rector of Khazar University, Ingilab Ahmadov, Director of Eurasia Knowledge Hub, and Galib Afandiyev, representative of NRGI Eurasia, delivered speeches at closing ceremony and stressed the importance of knowledge and skills gained at the training. In the end, the participants were presented with certificates.





UNİVERSİTETİN ƏMƏKDAŞLARI ŞİRVAN ŞƏHƏRİNDƏ OLDULAR

Martın 30-da Xəzər Universitetinin Potensial tələbələr üzrə işçi qrupunun koordinatoru Fuat Rəsulov, İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli və İqtisadiyyat və menecment departamentinin koordinatoru Elvin Məmmədov Şirvan şəhərində səfərdə oldular.

Səfər zamanı universitetin nümayəndələri Şirvan şəhərində yerləşən "Alfa" hazırlıq kurslarının rəhbərliyi və "İstək" liseyində məktəbin kollektivi ilə görüşdülər və onlara Xəzər Universiteti haqqında geniş məlumat verdilər.

KHAZAR UNIVERSITY STAFF MEMBERS VISIT SHIRVAN CITY

On March 30, Fuat Rasulov, Coordinator of a working group for prospective students, Alovsat Amirbayli, Director for Public Relations and Media, and Elvin Mammadov, Coordinator of the Department of Economics and Management, visited Shirvan city.

The staff members met with management board of "Alfa" tutoring course and teaching staff of "İstək" Lyceum, and delivered a detailed presentation on Khazar University.

FUAT RƏSULOV: "NEFTİN QİYMƏTİ YÜKSƏK HƏDDƏ ÇATA BİLƏR"

Aprelin 16-da *Yenicag.az* xəbər saytı Yaxın Şərqdə baş verən hadisələrin neftin qiymətinə edəcəyi təsirlərlə bağlı araşdırma yazısı yayımlamışdır. Yazıda Xəzər Universitetinin neft-qaz geosiyasəti üzrə professoru Fuat Rəsulovun fikirlərinə də yer verilmişdir.

Yazını tam şəkildə bu link vasitəsilə oxumaq olar:

https://yenicag.az/neftin-qiymeti-200-dollara-qalxa-biler-proqnoz/

FUAT RASULOV: "THE OIL PRICES TO SKYROCKET

On April 16, *Yenicag.az* news portal posted an article which mentions that the events in Middle East might have an effect on oil price. Views by Fuat Rasulov, professor in oil and gas geopolitics, Khazar University, were also covered by the article.

The full article is available through the following link:

https://yenicag.az/neftin-qiymeti-200-dollara-qalxa-biler-proqnoz/



İRAQ SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 2-də İraqın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Dr. Fadhil Awad Jebur Al-Shuvai və Yaxın Şərqdəki İsles Beynəlxalq Universitetinin (Bağdad) Beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Dr. Nazar Kareem Javad Rabeeah Xəzər Universitetində rektor Dr. Hassan Niknafs və Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova ilə görüşdülər.

Görüşün əsas məqsədi İsles Beynəlxalq Universiteti ilə Xəzər Universiteti arasında əlaqələrin yaradılması idi.

AMBASSADOR OF IRAQ VISITS KHAZAR UNIVERSITY

On April 2, Dr. Fadhil Awad Jebur AL-Shuwai, the Ambassador Extraordinary and Plenipotentiary of Iraq to the Republic of Azerbaijan, and Assoc Prof. Dr. Nazar Kareem Jawad Rabeeah, International Vice-President of Isles International University for the Middle East, visited Khazar University, Neftchiler campus.

The goal of the visit was to establish collaboration between the Isles International University for the Middle East (Baghdad) and Khazar University. Dr. Hassan Niknafs, Rector, and Turan Jafarova, Director of International Affairs Office, represented Khazar University in the meeting.

"DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" Təhsil Kompleksinin nəşri olan "Dünya" jurnalının 2018-ci il yanvar-fevral nömrəsi Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.

A NEW ISSUE OF "DUNYA" JOURNAL

A January-February issue for 2018 of "Dunya" journal, a publication of "Dunya" school, has been published at publishing house of Khazar University.





İMTAHAN NƏZARƏTÇİLƏRİ TƏLİMATLANDIRILDI

Aprelin 4-də Xəzər Universitetində İctimai əlaqələr və media üzrə direktor, Nizam-intizam komissiyasının sədri Əlövsət Əmirbəyli tərəfindən imtahan nəzarətçiləri üçün treninq təşkil edildi. Treninqdə Xəzər Universitetinin Elmi-İnzibati Şurası tərəfindən təsdiq olunmuş "İmtahan Qaydaları"nın bütün müddəaları müzakirə edildi.

Əsasnamənin imtahana hazırlıq mərhələsi, imtahan materiallarının hazırlanması, qiymətləndirmə prosesi, tapşırıqların hazırlanması, imtahanda iştirak, nəzarətçilərin səlahiyyətləri, baş nəzarətçi və nəzarətçilərin vəzifələri, imtahanın gedişi, imtahanın nəticələrinə etiraz, tamamlama imtahanları və digər əhəmiyyət kəsb edən məddələr haqqında imtahan nəzarətçilərinə geniş məlumat verildi. "İmtahan Qaydaları"nın bir sıra maddələri geniş müzakirəyə səbəb oldu. Sonda imtahanlarda nəzarətçi olacaq şəxslərin bütün sualları cavablandırıldı.

Treninqdə bütün fakültələrdən nəzarətçilər iştirak edirdilər.

EXAM SUPERVISORS INSTRUCTED

On April 4, Alovsat Amirbayli, Director for Public Relations and Media of Khazar University and Chairman of the Disciplinary Commission, ran a training session for exam supervisors. During the training, all the provisions of "Exam Rules", approved by Scientific and Administrative Council of Khazar University, were discussed.

Exam supervisors received detailed information on exam preparation, participation in an exam, authority of supervisors, duties of chief supervisor and supervisors, exam process, appeal for reassessment, and other important relevant issues. Some of the provisions of "Exam Rules" led to productive discussions.

Then, the trainer answered the questions of the participants. Exam supervisors from all the Schools participated in the training.

PROFESSOR HAMLET İSAXANLI AMEA RƏYASƏT HEYƏTİNİN TOPLANTISINDA ÇIXIŞ ETDİ

PROF. HAMLET ISAKHANLI DELIVERS A SPEECH AT THE MEETING OF PRESIDIUM OF ANAS

Aprelin 5-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin toplantısı keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini professor Şahin Mustafayevin "Osmanlı təhrir dəftərləri və Azərbaycan tarixi" mövzusunda məruzəsi ətrafında gemiş çıxış etdi.

H.İsaxanlı tarix fəlsəfəsi, sənədlərin rolu, Osmanlı dəftərləri haqqında mülahizələrini söylədi.

On April 5, the Presidium of Azerbaijan National Academy of Sciences held an assembly. In the framework of the assembly, Prof. Shahin Mustafayev, Deputy Director of Eastern Studies Institute, made a report on "Ottoman Tax Registers and Azerbaijan History".

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave a broad speech on the report expressing his thoughts on the philosophy of history, the role of documents, and Ottoman books.





"TƏŞKİLAT MƏDƏNİYYƏTİNİ NECƏ GÜCLƏNDİRMƏLİ?" MÖVZUSUNDA SEMİNAR

Aprelin 6-da Xəzər Universitetinin Psixologiya departamenti və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə Psixologiya departamentinin müdiri Ülkər İsayeva tələbələrlə "Təşkilat mədəniyyətini necə gücləndirməli?" mövzusunda seminar keçirdi. Ülkər İsayeva seminarda təşkilatçılıq mədəniyyətinin bir çox psixoloji və sosial məqamlarına toxunaraq, qərb ölkələrində istifadə edilən təşkilat metodlarının Azərbaycanda tətbiqinə aid maraqlı nümunələr üzərində durdu.

Tədbir iştirakçıların böyük marağına səbəb oldu. Qeyd edək ki, Ülkər İsayeva hazırda Turkiyənin Koç Universitetinin sosial və təşkilat psixologiyası ixtisası üzrə PhD təhsilini davam etdirir.

WORKSHOP "HOW TO REINFORCE ORGANIZATIONAL CULTURE?"

On April 6, Ulkar Isayeva, head of Department of Psychology, held a workshop on "How to reinforce organizational culture?", with the support of the Department of Psychology and Khazar Psychological Service Centre. Ulkar Isayeva talked about psychological and social aspects of organizational culture and referred to cases in which the experience of Western countries is applied in Azerbaijan.

Participants highly appreciated the workshop. Currently, Ulkar Isayeva is a PhD student in Social and Organizational Psychology at Koç University, Turkey.



"XƏZƏR"DƏ AZƏRBAYCAN V BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI





Aprelin 7-8-də Xəzər Universitetinin Psixologiya departamentinin və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə universitetin Mərmər salonunda Azərbaycan V Beynəlxalq Psixologiya Konfransı keçirildi. Konfransda universitetin rəhbərliyi və əməkdaşları, Türkiyə və ABŞ-dan dəvət olunmuş mütəxəssislər və yerli mütəxəssislər iştirak edirdilər.

Konfransdan əvvəl iştirakçılara Xəzər Universiteti Kamera orkestrinin ifasında qısa musiqi proqramı təqdim olundu.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs konfransı açaraq, xarici mütəxəssisləri və iştirakçıları salamladı, hər il keçirilən konfransın həm yeni biliklərlə zənginləşmək, həm də təcrübə toplamaq baxımından böyük əhəmiyyətindən danışdı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, universitetdə belə beynəlxalq elmi tədbirlərin ənənəvi olaraq mütəmadi keçirildiyini diqqətə çatdırdı, Xəzər Psixoloji Xidmət Mərkəzinin fəaliyyətindən bəhs etdi.

(Ardı səh. 16-da)





AZERBAIJAN V INTERNATIONAL PSYCHOLOGY CONFERENCE TAKES PLACE

On April 7-8, Azerbaijan V International Psychology Conference was held on the initiative of the Department of Psychology, Khazar University and Khazar Psychological Service Centre. Khazar University administration and staff members, national experts as well as American and Turkish experts took part in the conference. Before the conference, Khazar University Camera Orchestra performed a concert program.

Dr Hassan Niknafs, Rector of Khazar University, opened the conference and greeted the participants. The Rector mentioned that the conference, which is held every year, is of great importance in terms of gaining new knowledge and experience.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a speech emphasizing traditional international events held at Khazar University and talked about the activity of Khazar Psychological Service Centre.

International experts delivered presentations on the following topics:

(To be continued on page 17)







Konfransda Türkiyə TED Universitetindən professor Nilüfer Voltan Acarın "İnteqrativ konsultasiya modeli-Şərq ölkələri üçün psixoloji konsultasiyanın aparılma qaydaları", Hasan Kalyoncu Universitetindən professor Mehmet Hakan Türkçaparın "Psixoterapiyada elmi yanaşma, depressiyada davranış aktivlik müalicəsi", Hacettepe Universitetindən professor Ebru Cengel Kültürün "Məktəbəqədər yaş dövründə uşaqlarda ruhi sağlamlığın qiymətləndirilməsi meyarları, autizmin ilkin diaqnostikasının aparılma qaydaları", İstanbul Cərrahpaşa Xəstəxanasının psixiatrı Doc. Dr. Ejder Akgün Yıldırımın "Psixodrama və onun müxtəlif tətbiq şəkilləri", Amerikanın George Mason Universitetindən professor Frederick Bemakın "Qaçqınlıq və məcburi köçkünlüyün psixoloji təsirləri", Wisconsin La-Crosse Universitetindən isə professor Robert Jecklinin "İctimai sağlamlıq və psixologiya" mövzularında məruzələri dinlənilərək, psixologiyanın müxtəlif sahələrinə aid müzakirələr aparıldı, suallar cavablandırıldı və qrup psixoloji terapiyasından müxtəlif nümunələr göstərildi.

Konfrans iştirakçıları psixologiya sahəsində yeni biliklər əldə etməklə yanaşı, təcrübələrini də artırdılar.

Konfransın sonunda qonaq professorlara plaketlər, iştirakçılara isə sertifikatlar təqdim edildi.

Konfrans iştirakçıları Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin, Şəhidlər Xiyabanında şəhidlərin xatirəsini yad etdilər.

Tədbirin sonunda xarici qonaqlar üçün ziyafət təşkil olundu.

Konfransın gedişi AzTV kanalında və ölkə xəbər portallarında işıqlandırılmışdır:

http://www.islahat.az/azerbaycan-v-beynelxalq-psixologiya-konfransi-bas-tutdu/

http://frame.az/az%C9%99rbaycan-v-beyn%C9%99lxalq-psixologiya-konfransi-bas-tutdu/ və s.



Prof. Nilufer Voltan Acar, TED University, - "Interactive consultancy model – methods of psychological consultancy in the Eastern countries", Mehmet Hakan Turkchapar, Hasan Kalyoncu University, - "Scientific approach in psychotherapy, treatment for behavioral activity in depression", Prof. Ebru Jengel Kultur, Hacettepe University, - "Criteria for assessment of mental health of children with preschool age, methods for early diagnosis of autism", Doc.Dr.Ejder Akgun, Psychiatrist of Istanbul Cerrahpaşa Hospital, - "Psychodrama and its application through various methods", Prof. Frederick Bemak, George Mason University, - "Psychological effects of refuge life and forced displacement", Robert Jecklin, University of Wisconsin–La Crosse, - "Public health and psychology". Moreover, the presenters and participants had discussions on the topics and experts demonstrated various examples of group psychotherapy.

Conference participants gained new knowledge and expanded their experience. At the end of the conference, guest professors and participants were presented with plaques and certificates, respectively. Conference participants also visited Heydar Aliyev's, the nationwide leader, grave in the Alley of Honor and Martyrs Alley.

A reception was held in honour of conference participants. The media and AzTV channel covered the conference:

http://www.islahat.az/azerbaycan-v-beynelxalq-psixologiya-konfransi-bas-tutdu/
http://frame.az/az%C9%99rbaycan-v-beyn%C9%99lxalq-psixologiya-konfransi-bas-tutdu/









PROFESSOR HAMLET İSAXANLI MALAYZİYA SƏFİRİ ROSLAN ABDUL RAHMAN İLƏ "DÜNYA" MƏKTƏBİNDƏ

PROFESSOR HAMLET ISAKHANLI MEETS WITH AMBASSADOR OF MALAYSIA, ROSLAN ABDUL RAHMAN AT DUNYA SCHOOL

Aprelin 9-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Malayziyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Roslan Abdul Rahman və Malayziya Turizm səfiri Datuk Nərgiz Səfərova ilə, həmçinin "Dünya" Təhsil Kompleksinin rəhbəri Mərufə Mədətli ilə görüşdü.

Görüşdə Azərbaycan və Malayziya arasında elm, təhsil, mədəniyyət sahəsində əlaqələrin gücləndirilməsi, Xəzər Universitetinin və "Dünya" Təhsil Kompleksinin bu işə verə biləcəyi töhfələr müzakirə olundu.

On April 9, Professor Hamlet Isakhanli, founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees met with Ambassador Extraordinary and Plenipotentiary of Malaysia to the Republic of Azerbaijan, Roslan Abdul Rahman and Malaysia Tourism Ambassador Datuk Nargiz Safarova, as well as with the head of "Dunya" Education Complex Marufa Madatli.

Bilateral relationships between Azerbaijan and Malaysia in the spheres of science, education, culture and tourism, the contribution of Khazar University and "Dunya School" to the activities were discussed at the meeting.















İTALİYA MƏDƏNİYYƏT MƏRKƏZİNİN VƏ ROMANIN SAPİENZA UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

MEETING WITH REPRESENTATIVES OF ITALIAN CULTURAL CENTER AND SAPIENZA UNIVERSITY OF ROME

Aprelin 9-da Bakıdakı İtaliya Mədəniyyət Mərkəzi və Romanın Sapienza Universitetinin nümayəndələri Xəzər Universitetinin "Neftçilər" kampusunda oldular.

Bakıdakı İtaliya Mədəniyyət Mərkəzinin dəstəyi ilə təşkil olunan görüş Sapienza Universiteti ilə Xəzər Universiteti arasında əməkdaşlığın gücləndirilməsinə yönəlmişdi. Xəzər Universitetinin görüşdəki nümayəndəliyi universitetin rektoru Dr. Hassan Niknafs, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev və Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərovadan ibarət idi. Qonaqları Sapienza Universitetinin AB proqramları bölümünün rəhbəri Mattea Capelli, həmin universitetin Beynəlxalq ofisinin əməkdaşı Olesya Kifa, İtaliya Mədəniyyət Mərkəzinin baş direktoru Çingiz Əsgərov və həmin mərkəzin həmtəsisçisi Fərid Abbasov təmsil edirdilər. Görüş iştirakçıları gələcək əməkdaşlıq üçün tələbə və işçilərin mübadiləsi, birgə dərəcə proqramlarının yaradılması kimi ümumi maraq doğuran mövzuları müzakirə etdilər.

Erasmus+ proqramı çərçivəsində Xəzər Universiteti Sapienza Universiteti ilə əməkdaşlığa başlamışdır. Xəzər Universitetinin bir tələbəsi bu proqram daxilində mübadilə imkanından yararlanmışdır.

On April 9, the representatives of the Italian Cultural Center in Baku and the representatives of Sapienza University of Rome visited Neftchiler campus of Khazar University.

The meeting was organized with the support of the Italian Cultural Center in Baku and aimed at strengthening the cooperation between Sapienza University and Khazar University. Participants of Khazar University included Dr. Hassan Niknafs, Rector of Khazar University, Mr. Elmar Mustafayev, Coordinator of the Department of Political Science and International Relations, and Turan Jafarova, Director of the International Affairs Office. Guests included Ms. Mattea Capelli, Head of EU Programs Unit at Sapienza University, Olesya Kifa, International Office employee at Sapienza University, Chingiz Asgarov, General Director of the Italian Cultural Center and Farid Abbasov, Co-founder of the Italian Cultural Center. During the meeting, some areas of mutual interest for future cooperation, including student and staff exchange, establishment of double-degree programs, and other important issues were discussed by the participants.

Khazar University started its cooperation with Sapienza University within the Erasmus + Programme. One student from Khazar University previously benefited from exchange opportunity within the program.



TÜRKİYƏNİN ARTVİN ÇORUH UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ "XƏZƏR"DƏ

REPRESENTATIVES OF ARTVIN CORUH UNIVERSITY VISIT KHAZAR UNIVERSITY

Aprelin 13-də Türkiyənin Artvin Çoruh Universitetinin nümayəndələri ilə Xəzər Universitetində görüş keçirildi.

Xəzər Universitetindən rektor Dr. Hassan Niknafs və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Günay Fərzəliyeva görüşdə iştirak edirdilər. Artvin Çoruh Universitetini isə Beynəlxalq Əlaqələr Tədqiqat və Tətbiq Mərkəzinin mütəxəssisi Hakan Gültekin təmsil edirdi.

Görüş zamanı hər iki universitet arasında tələbə və akademik heyət mübadiləsi, Erasmus+ və Mövlanə Mübadilə Proqramı və tədqiqat sahəsində əməkdaşlıq imkanları müzakirə edildi. Gələcək əməkdaşlığın əsasını qoymaq və ortaq maraq doğuran sahələrdə birgə işlər görmək üçün anlaşma memorandumunun imzalanması razılaşdırıldı.

Görüşün sonunda hər iki universitetin təbliğat materialları təqdim olundu.

On April 13, the representatives of Artvin Coruh University (Turkey) visited Khazar University.

The pparticipants from Khazar University included Dr. Hassan Niknafs, Rector of Khazar University and Gunay Farzaliyeva, coordinator of International Affairs Office. Hakan Gultekin, Expert of Research and Application Center of International Relations, represented Artvin Coruh University.

Meeting participants discussed collaboration opportunities on student and faculty exchange, cooperation within Erasmus+ and Mevlana Exchange Program and research. To start a future cooperation and work on areas of mutual interest, parties decided to sign a memorandum of understanding.

At the end of the meeting, promo materials of both universities were exchanged.








KARDEMİR



Aprelin 11-12-də Türkiyənin İstanbul şəhərində 21-ci Avrasiya İqtisadi Zirvə toplantısı keçirildi. Zirvə toplantısında, hər il olduğu kimi, bu il də dünyanın 40 ölkəsindən 915 nümayəndə, o cümlədən Xəzər Universiteti adından İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak edirdi. Toplantının 1-ci günü Nobel mükafatı laureatı Aziz Sancarın Zirvə toplantısı iştirakçılarına ünvanlanmış məktubu oxundu. Bosniya və Herseqovinanın sabiq prezidenti Mavino Gavara, Makedoniya Prezidenti Gjorge İvanov, Türkiyə Baş nazirinin müavini Mehmet Şimşek iştirakçıları salamladılar.

Mərmarə Vəqfinin başqanı Akkan Suver, Makedoniyanın dövlət naziri Adnan Kamil, Avstriyanın müdafiə naziri Werner Fasslabend, Türkmənistanın maliyyə naziri Merdan Bayramdurdiyev, Rusiya Baş nazirinin sabiq müavini Gennadi Burbulis çıxış etdilər. Kosovo, Bolqarıstan, Türkiyə, Kuzey Kıpbrıs Türk Cumhuriyeti (KKTC), Makedoniya, Bosniya və Herseqovina və Monteneqrodan olan bələdiyyə başqanları idarə etdikləri bələdiyyələrin yeni iş sistemləri haqqında məlumat verdilər.

Zirvə toplantısının ikinci günü Əlövsət Əmirbəyli katibliyə seçildi. Həmin gün Türkiyə Cümhuriyyətinin Baş naziri Binəli Yıldırım Suriyada və dünyada yaranmış təhlükəli vəziyyətlə bağlı məruzə ilə çıxış etdi. Məruzə ətrafında İstanbul Patriarxı Archbishop Bartholomew və digər dini liderlər çıxış etdilər.

On April 11, 21st Eurasian Economic Summit started in Istanbul, Turkey. 915 participants from 40 countries joined the Summit. Alovsat Amirbayli, Director for Public Relations and Media of Khazar University, participated in the Summit on behalf of Khazar University. On the first day of the Summit, a letter by Aziz Sanjar, a Nobel Laureate, addressed to Summit participants was read.

Mavino Gavara, Former President of Bosnia and Herzegovina, Gjorge Ivanov, Macedonian President, and Mehmet Shimshek, Turkish Deputy Prime Minister, greeted the participants. Mavimo Gavara, Former President of Bosnia and Herzegovina, Mladen Ivanic, Prime Minister, Gjorge Ivanov, Macedonian President, and Mehmet Shimshek, Turkish Deputy Prime Minister, greeted the participants. Then Akkan Suver, the President of the Marmara Foundation, Adnan Kamil, the State Minister of Macedonia, Werner Fasslabend, the Minister of Defense of Austria, Merdan Bayramdurdiyev, the Minister of Finance of Turkmenistan, and Gennady Burbulis, the former Deputy Prime Minister of Russia, delivered speeches. Heads of municipalities from Kosovo, Bulgaria, Turkey, Turkish Republic of Northern Cyprus, Macedonia, Bosnia and Herzegovina and Montenegro delivered reports on about new systems of their municipalities.

On the second day of the Summit, Alovsat Amirbayli was selected a member of secretary. On the second day, Binali Yildirim, Prime Minister of the Republic of Turkey, delivered a speech on a dangerous situation in Syria and in the world. Archbishop Bartholomew, Patriarch of Istanbul, and other religious leaders delivered speeches on the same topic.





Günün ikinci yarısında Türkiyə Cümhuriyyətinin sabiq Prezidenti Abdulla Gül, Bosniya və Herseqovinanın sabiq Prezidenti Marinka Gavara, Xorvatiyanın sabiq prezidentləri İvo Josipoviç, Stjepan Mesic, KKTC-nin Prezidenti Mustafa Akıncı, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Makedoniyanın Prezidenti Gjorge İvanov, Moldovanın sabiq Prezidenti Petru Luçinski, Rumıniyanın sabiq Prezidenti Emil Constantinescu, Bosniya və Herseqovinanın Baş naziri Mladen İvaniç dünyada baş verən son hadisələrdə bağlı maraqlı məruzələrlə çıxış etdilər.

Sonda Zirvə toplantısının iştirakçıları adından dünya dövlətlərinin rəhbərlərinə müraciət qəbul olundu.

Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli konfrans zamanı Türkiyə Cümhuriyyətinin sabiq Prezidenti Abdulla Gül, KKTC-nin prezidenti Mustafa Akıncı, Moldovanın sabiq Prezidenti Petru Luçinski, Rusiyanın Baş nazirinin sabiq müavini Gennadi Burbulis, Nobel mükafatı laureatı Aziz Sancar və digər rəsmi şəxslərlə görüşdü və onlara Xəzər Universiteti haqqında məlumat verdi.

Abdullah Gul, former President of the Republic of Turkey, Marinka Gavara, former President of Bosnia and Herzegovina, Ivo Josipovic and Stjepan Mesic, former Croatian presidents, Mustafa Akinji, Turkish Republic of Northern Cyprus, Mladen Ivanic, Prime Minister of Bosnia and Herzegovina, Valdis Zatlers, former President of Latvia, Gjorge Ivanov, President of Macedonia, Petru Luçinski, former President of Moldova, and Emil Constantinescu, former President of Romania, delivered interesting reports on recent accidents in the world. At the end of the Summit, participants approved a declaration addressed to the leaders of countries.

Alovsat Amirbayli, Director for Public Relations and Media of Khazar University, met Abdullah Gul, former President of the Republic of Turkey, Mustafa Akinji, Turkish Republic of Northern Cyprus, Petru Luçinski, former President of Moldova, Gennady Burbulis, the former Deputy Prime Minister of Russia, and Aziz Sanjar, a Nobel Laureate, and informed them about Khazar University.







ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI

Aprelin 13-də Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi. Universitetin rektoru Hassan Niknafsın sədrliyi ilə keçən iclasda Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Vəfa Aslanova məzunlar haqqında məlumatı təqdim etdilər.

Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev doktorant və dissertantların dissertasiya mövzusu, elmi rəhbərlərin təsdiqi və ixtisaslarının dəyişdirilməsi haqqında məlumat verdi.

Elmi işlər üzrə prorektor İradə Xəlilovanın dərs vəsaitlərinin və fənn proqramlarının çapa təqdim olunması, elmi adların verilməsi haqqında məlumatı dinlənildi.

Müzakirə olunan məsələlər haqqında müvafiq qərarlar qəbul edildi.

İclasda cari məsələlər haqqında da fikir mübadiləsi aparıldı.

THE NEXT MEETING OF THE SCIENTIFIC COUNCIL

On April 13, Scientific Council of Khazar University held a meeting. Dr. Hassan Niknafs, rector of the university, chaired the meeting. Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences, Jeyhun Mammadov, Dean of the School of Economy and Management, Elza Samadova, Dean of the School of Education, Vafa Aslanova, Vice-dean of the School of Engineering and Applied Sciences, reported on the graduate students.

Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, delivered information on dissertation topics of PhD students, approval of their supervisors and change of qualifications.

Irada Khalilova, Vice-rector for Research, delivered a report on the publication of textbooks and curricula as well as presentation of scientific degrees.

Appropriate decisions were made on the issues discussed.

Participants made decisions of issues under discussions and exchanged views on current issues.









BELÇİKA SƏFİRİ XƏZƏR UNİVERSİTETİNİN QONAĞI OLDU

Aprelin 19-da Belçika Krallığının Fövqəladə və Səlahiyyətli səfiri H.E.Bert Schoofs Xəzər Univerisiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin dəvəti ilə universitetin qonağı oldu. Səfir assistenti Sevil Qəhrəmanovanın müşayiətilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs və Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayevlə görüşdü.

Görüşdə Xəzər Universitetinin tarixi, ixtisaslar, tədqiqat imkanları və universitetin beynəlxalq əlaqələri haqqında məlumat verildi. Eyni zamanda, tələbə və kadr mübadiləsi üzrə qarşılıqlı əməkdaşlıq imkanları, Xəzər Universiteti ilə Belçika ali təhsil müəssisələri arasında ikitərəfli proqramların hazırlanması və birgə tədqiqatların aparılması müzakirə olundu.

Öz növbəsində, səfir Schoofs Belçika ali təhsil müəssisələri ilə Xəzər Universiteti arasındakı münasibətlərin qurulmasında məmnuniyyətlə iştirak etməyə hazır olduğunu bildirdi. O, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin tələbələri üçün xüsusi seminar keçirmək üçün edilən dəvəti müsbət qiymətləndirdi.

AMBASSADOR OF BELGIUM VISITS KHAZAR UNIVERSITY

On April 19, Mr H. E. Bert Schoofs, Extraordinary and Plenipotentiary Ambassador of the Kingdom of Belgium to the Republic of Azerbaijan paid a courtesy visit to Khazar University on the invitation of the Department of Political Science and International Relations of Khazar University. Accompanied by Sevil Gahramanova, Ambassador's assistant, Mr H.E.Bert Schoofs met with Prof. Hamlet Isakhanli, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, Dr. Hasan Niknafs, Rector of Khazar University, and Elmar Mustafayev, Coordinator of the Department of Political Science and International Relations.

During the meeting, the Ambassador was informed on the historical background of the University as well as education and researches and international relations of the University. Moreover, the meeting participants discussed opportunities for student and teacher exchange, cooperation as well as bilateral programs and researches with universities of Belgium.

Mr H.E.Bert Schoofs expressed his eagerness to support the collaboration between Khazar University and the universities of Belgium. In addition, Ambassador was happy with the invitation for conducting a special seminar for the students of the Department of Political Science and International Relations.

TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİ MÜƏLLİMİNİN TÜRKİYƏNİN TELEVİZİYA KANALLARINDA ÇIXIŞLARI

INSTRUCTOR OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY AT TURKISH TV CHANNELS

***

Tarix və arxeologiya departamentinin müəllimi Dr. Telman Nüsrətoğlu martın 30-da TRT televiziya kanalının "Xəbərlər" proqramında 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününün tarixi həqiqətləri mövzusunda çıxış edib. Əsasən rus, Azərbaycan və Gürcüstan arxivlərində olan, bu soyqırım hadisəsini bütün çılpaqlığı ilə ortaya qoyan sənədlər və AXC-nin 1918-ci ildə qurduğu Fövqəladə Təhqiqat Komissiyasının materialları haqqında tamaşaçılara məlumat verdi.

On March 30, Dr.Telman Nusratoghlu, instructor of the Department of History and Archaeology, participated in the "News" broadcast, TRT channel, and talked about March 31 - Genocide of Azerbaijanis. He also talked about archive documents from Russia, Azerbaijan and Georgia which expose genocide as reality as well as materials of Emergency Investigation Commission established by the Azerbaijan Democratic Republic in 1918.

***

Aprelin 12-də Dr. Telman Nüsrətoğlu Türkiyənin TRT kanalında Türkiyə-Azərbaycan münasibətlərinin gələcəyi, iki qardaş ölkə arasındakı iqtisadi, mədəni, hərbi sahədəki əməkdaşlığın keçmişi və bu günü, həyata keçirilən ortaq strateji layihələr və bu ortaq layihələrin bölgənin stabilliyinə töhfəsi haqqında çıxış etmişdir.

On April 12, Dr. Telman Nusratoghlu, participated in a broadcast of TRT channel of Turkey. He talked about the future of Turkey and Azerbaijan relations, the past and present situations in economic, cultural and military spheres as well as joint projects which are important in terms of contribution to stability in the region.

***

Aprelin 25-də Dr. Telman Nüsrətoğlu Türkiyənin Ülke TV kanalının "Odak noktası" proqramının canlı yayımda qonağı oldu. O, Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması prosesindən, 1828-ci il Türkmənçay müqaviləsindən sonra ermənilərin kütləvi şəkildə İran və Osmanlı ərazilərindən gətirilərək, İrəvan xanlığı torpaqlarında yerləşdirilməsindən və daha sonra da həmin torpaqların əsl sahibi olan müsəlman-türk əhalinin mərhələli şəkildə ordan köç etməyə məcbur edilməsindən söz açdı.

Dr. Telman Nüsrətoğlu, eyni zamanda, erməni terror təşkilatlarının 1905-1907-ci, 1918-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində mülki əhaliyə qarşı törətdiyi qətliamlar haqqında da televizya tamaşaçılarına məlumat verdi.



***



PROFESSOR HAMLET İSAXANLININ YUBİLEYİNƏ HƏSR OLUNMUŞ "XƏZƏR"İN SORAĞINDA" ADLI ƏDƏBİ-BƏDİİ TƏDBİR KEÇİRİLDİ

Aprelin 20-də Xəzər Universitetinin Mərkəz kampusundakı "Dünya" konsert salonunda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının yubileyinə həsr olunmuş "Xəzər"in sorağında" adlı ədəbi-bədii tədbir keçirildi.

Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr, həmin gün Xəzər Universitetində açılışı olmuş "Qloballaşan təhsil" adlı beynəlxalq simpoziuma gəlmiş yerli və xarici mütəxəssislər iştirak edirdilər.

İştirakçılara AzTV-nin əməkdaşı Faizə Mehdiyevanın rejissorluğu ilə hazırlanmış, Aparıcı – Film-monoloq – Səhnə tamaşası – Musiqi komponentlərindən ibarət çoxplanlı və maraqlı ədəbi-bədii kompozisiya təqdim olundu. Aparıcı İctimai TV-nin aparıcısı Məhəmməd Əli idi.

Kompozisiya Hamlet İsaxanlının həyatı haqqında qısa məlumatla başlayaraq, əsasən onun Xəzər Universitetini qurmaq yolunda respublikanın Nazirlər Kabineti ilə apardığı gərgin danışıqları və bunun Baş nazir Həsən Həsənovun universitetin təsisinə icazə verən tarixi imzası ilə sona çatdığını əks etdirirdi.

(Ardı səh. 30-da)







A CEREMONY "IN SEARCH OF KHAZAR" DEDICATED TO PROF. HAMLET ISAKHANLI'S JUBILEE

On April 20, a literary-artistic ceremony "In search of Khazar" dedicated to Prof. Hamlet Isakhanli's, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, anniversary was held in "Dunya" concert hall of the University.

University administration and students as well as participants of the symposium on "Global Education", which was held at the University on the same day, participated in the ceremony.

A multifaceted and interesting composition consisted of a Presenter – Movie-monologue – Stage play – Pieces of Music, which was directed by Faiza Mehdiyeva, a staff member of AzTV channel, was demonstrated. The presenter of the ceremony was Mahammad Ali, a staff member of "Ictimai" Television.

The composition started with Hamlet Isakhanli's short biography. The composition mainly dealt with intense negotiations between Hamlet Isakhanli and Cabinet of Ministers for the establishment of Khazar University, and ended with historical signature by Hasan Hasanov, Prime Minister, which approved permission for the establishment of the University.

(To be continued on page 31)







Tamaşada rolları Xəzər Universitetinin əməkdaşları Mail Yaqub (Həsən Həsənov) və Qoşqar Məhərrəmov (iqtisad elmləri doktoru Saleh Məmmədov), Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru Təbriz Əmrahlı (Nazirlər Kabineti nəzdində İqtisadiyyatın İdarə Edilməsi İnstitutunun rektoru Rəhim Rəhimov) və aktyor Nicat Əli (Hamlet İsaxanlı) ifa edirdilər.

Hamlet İsaxanlının sözlərinə yazılmış mahnıları Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim Zülfiyyə Sadıqovanın pianoda müşayiəti ilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının solisti, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova ("Yadındamı", bəstəkar Cavanşir Quliyev) və M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, əməkdar artist Fərid Əliyev ("Qədim sual", bəstəkar Dilarə Qulamova), Xəzər Universitetinin himnini isə həmin müşayiətlə universitetin tələbələrindən ibarət xor kollektivi ifa etdilər.

Sonda səhnəyə dəvət olunan Hamlet İsaxanlını iştirakçılar alqışlarla qarşılayıb, yubileyi münasibətilə təbrik etdilər. H. İsaxanlı ədəbi-bədii tədbiri hazırlayanlara və iştirakçılara təşəkkürünü bildirdi.







The roles of the play were performed by Mail Yagub (Hasan Hasanov) and Goshgar Maharramov (Saleh Mammadov, PhD in Economics), Tabriz Amrahli, an actor of Azerbaijan State Theater of Young Spectators (Rahim Rahimov, Rector of Institute of Economic Management affiliated with Cabinet of Ministers) and Nijat Ali, actor (Hamlet Isakhanli).

Mashati Jabbarova, instructor of Khazar University and soloist of the Azerbaijan State Academic Philharmonic Hall named after Muslim Magomayev, performed a piece of music ("Do you remember", composer Javanshir Guliyev) with lyrics by Hamlet Isakhanli, accompanied by Zulfiyya Sadigova, Head of Department of Music and Art of Khazar University. M.F.Akhundov, soloist of Azerbaijan State Academic Opera and Ballet Theater, also performed a piece of music ("Ancient question", composer Dilara Gulamova), with lyrics by Hamlet Isakhanli, with the same accompaniment. Moreover, a choral team consisting of students performed anthem of Khazar University with the same accompaniment.

At the end of the ceremony, Hamlet Isakhanli went on the stage under the applause of the audience. He warmly accepted birthday congratulations and expressed his gratitude for the ceremony.



















XƏZƏR UNİVERSİTETİNDƏ "QLOBALLAŞAN TƏHSİL" BEYNƏLXALQ SİMPOZİUMU

"GLOBAL EDUCATION" SYMPOSIUM AT KHAZAR UNIVERSITY

Aprelin 20-21-də Xəzər Universitetində universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının yubileyinə həsr olunan "Qloballaşan təhsil" adlı beynəlxalq simpozium keçirildi.

Simpoziumda Azərbaycan (Xəzər Universiteti, ADA Universiteti, Azərbaycan Respublikası Təhsil İnstitutu, ADİU, ADPU, ADU, ATU, ADMİU, BSU,BMU, Gəncə Dövlət Universiteti, Mingəçevir şəhərindəki 7 saylı məktəb, Bakı şəhərindəki 126 saylı tam orta məktəb), Türkiyə (Başkent Universiteti, Eskişehir Osmanqazi Universiteti, Qazi Universiteti, "Khan university"), Macarıstan (Debrecen Universiteti), Finlandiya (İyvaskyla universiteti), Albaniya (New York Tirana Universiteti), Avstriya (Vyana Tətbiqi Elmlər Universiteti) və Bolqarıstandan (Cənub-Qərb Universiteti) olan alim və mütəxəssislər iştirak edirdilər.

Konfransdan əvvəl iştirakçılara Xəzər Universiteti Kamera orkestrinin ifasında qısa musiqi proqramı təqdim olundu.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı konfransı açaraq, iştirakçıları salamladı, konfransın əhəmiyyətindən danışdı və işinə uğurlar arzuladı.

New York Tirana Universitetinin rektoru professor FatoşTarifa, Başkent Universitetinin professoru Buket Akkoyunlu və digərləri də çıxış edərək, konfransın Bakıda, yaxşı təmdıqları Xəzər Universitetində keçirilməsindən məmnunluq duyduqlarını bildirdilər.

(Ardı səh. 34-də)

On April 20-21, international symposium on "Global Education", dedicated to Prof. Hamlet Isakhanli's, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, anniversary was held at Khazar University.

Scientists and experts from Azerbaijan (Azerbaijan State University of Economics, Azerbaijan State Pedagogical University, Azerbaijan University of Languages, Azerbaijan State University of Culture and Arts, Baku Slavic University, Baku Engineering University, Ganja State University, secondary school number 7 of Mingachevir city and secondary school number 126 of Baku city) as well as Turkey (Başkent University, Eskişehir Osmankazi University, Gazi University, "Khan Academy"), Hungary (Debrecen University), Finland (İyvaskyla University), Albania (New York University of Tirana), Austria (Vienna University of Applied Sciences) and Bulgaria (South-West University) participated in the symposium.

Before the opening of the conference, Khazar University Camera Orchestra performed a short program of pieces of music.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, opened the conference and greeted the participants. Moreover, he stressed the importance of the conference and wished conference success.

Prof. Fatos Tarifa, Rector of the University of New York Tirana (Albania), and Prof. Buket Akkoyunlu from Çankaya University (Turkey), delivered speeches expressing their delight for the organization of the conference at Khazar University, Baku.

(To be continued on page 35)









Açılış mərasimindən sonra və aprelin 21-də simpozium işini səkkiz bölmədə davam etdirdi. Bölmələrə ADİU - dan professor Zahid Məmmədov, Natiq Hacıyev, ADPU - dan Bilal Həsənov, Oktay Abasov, Xəzər Universitetindən Lyudmila Sotova, Mələk Kərimova və Debrecen Universitetindən Peter Forisek sədrlik edirdilər. Bölmələrdə 40-dan artıq məruzə dinlənilərək, müzakirələr aparıldı və suallar cavablandırıldı.

Aprelin 21-də bağlanış mərasimində bölmələrin sədrləri və həmsədrlərindən Ayhan Aydın (Eskişehir Osmanqazi Universiteti), Bilal Həsənov və Məlahət Abdulldyeva (ADPU), Ülkər Bayramova və Mələk Kərimova (Xəzər Universiteti) və Peter Forişek (Debrecen Universiteti) məlumat verərək, dinlənilmiş məruzələrin elmi səviyyəsinin əsasən yüksək olduğunu və fəal müzakirələr aparıldığını bildirdilər.

Bağlanış mərasimində Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev çıxış edərək, konfransın işini yekunlaşdırdı və simpoziumun hazırlanıb keçirilməsində əməyi olanlara və iştirakçılara minnətdarlığını bildirdi.

New York Tirana Universitetinin rektoru professor FatoşTarifa simpoziumun yüksək səviyyədə təşkil olunduğuna görə Xəzər universitetinin rəhbərliyinə təşəkkür etdi.

Simpozium iştirakçılarına sertifikat təqdim olundu.

Xarici iştirakçılar üçün Bakı ətrafına ekskursiya təşkil edildi.









Symposium took place in eight workshops. More than 40 reports were delivered at workshops which were followed by discussions and questions. Moderators of plenary sessions were Prof. Zahid Mammadov, Natiq Hajiyev from UNEC, Bilal Hasanov, Oktay Alkhasov from ASUP, Lyudmila Sotova, Malak Karimova From Khazar University and Peter Forisek from Debrecen University. On April 21, at the closing ceremony, Ayhan Aydin (Eskişehir Osmangazi University), Bilal Hasanov and Malahat Abdullayeva (Azerbaijan State Pedagogical University), Ulkar Bayramova and Melek Karimova (Khazar University) and Peter Forishek (Debrecen University) delivered reports on workshops mentioning the quality of reports and active engagement of participants.

In the closing ceremony, Prof. Mahamad Nuriyev, Vice-rector for Education of Khazar University, delivered a final speech and expressed his gratitude for the organization of the symposium.

Prof. Fatos Tarifa, Rector of the University of New York Tirana, also expressed his special thanks for the symposium.

Symposium participants were presented with certificates. Foreign participants went on an excursion around Baku city.









"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



AMEA-NIN ƏDƏBİYYAT İNSTİTUTU İLƏ PEKİN XARİCİ DİLLƏR UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANIB

Aprelin 19-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Pekin Xarici Dillər Universitetinin (PXDU) ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib.

AMEA-nın prezidenti, akademik Akif Əlizadə ölkəmizdə elmin inkişafı istiqamətində görülən işlər, əldə olunan nailiyyətlər barədə məlumat verib. Akademik Azərbaycan-Çin elmi əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıb.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli humanitar və ictimai elmlər sahəsində Azərbaycan-Çin elm və təhsil əlaqələrindən bəhs edib. Bu ildən etibarən Pekin Xarici Dillər Universitetində 12 azərbaycanlı tələbənin təhsil alacağını bildirən akademik İsa Həbibbəyli elm və təhsil sahəsində aparılan ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdiyini xüsusi vurğulayıb və PXDU-da yaradılmış Azərbaycan dili kafedrasının, həmçinin Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Çin Mərkəzinin işini yüksək dəyərləndirib.

Çin nümayəndə heyətinin rəhbəri, Pekin Xarici Dillər Universitetinin rektoru, professor Peng Long elm və təhsil sahəsində ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın bundan sonra da genişlənəcəyini əminliklə vurğulayıb.

Görüşdə Azərbaycanın elm ocaqları ilə müxtəlif istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası, kadr hazırlığı məsələləri də müzakirə edilib.

Sonra AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli və PXDU-nun rektoru, professor Peng Long AMEA Nizami adına Ədəbiyyat İnstitutu ilə Pekin Xarici Dillər Universiteti arasında elmi əməkdaşlıq müqaviləsi imzalayıblar. Əməkdaşlıq müqaviləsində birgə tədqiqatlar aparmaq, nəşr işləri, qarşılıqlı tədbirlər və s. məsələlər öz əksini tapıb.

Daha sonra Çin nümayəndə heyətinin üzvləri Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Çin Mərkəzi ilə tanış olublar. Mərkəzlə tanışlıq qonaqlarda yüksək təəssürat yaradıb.

Görüşlərdə AMEA Beynəlxalq əlaqələr idarəsinin rəisi Esmira Əlirzayeva, PXDU Beynəlxalq mübadilə və əməkdaşlıq şöbəsinin direktoru Jing Ke, PXDU Ərəb və İslam tədqiqatları mərkəzinin direktoru Qingguo Xue, Nizami adına Ədəbiyyat İnstitutu "Azərbaycan-Asiya ədəbi əlaqələri" şöbəsinin müdiri Bədirxan Əhmədov, PXDU Asiya-Afrika fakültəsinin dekan müavini Zhongwu MA və media nümayəndələri iştirak ediblər.



ƏDƏBİYYAT İNSTİTUTUNDA BÖYÜK ÖZBƏK MÜTƏFƏKKİRİ ZAHİRƏDDİN MƏHƏMMƏD BABURUN 535 İLLİYİ QEYD OLUNUB

Aprelin 20-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Özbəkistanın ölkəmizdəki səfirliyi ilə birlikdə böyük özbək mütəfəkkiri, görkəmli dövlət xadimi, ensiklopedik alim və şair Zahirəddin Məhəmməd Baburun anadan olmasının 535 illiyi münasibətilə beynəlxalq elmi konfrans keçirib.

Konfransda AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Zahirəddin Məhəmməd Baburun görkəmli dövlət xadimi kimi fəaliyyətindən, bədii irsindən danışıb. Akademik bildirib ki, Şah İsmayıl Xətai və Zahirəddin Məhəmməd Babur Şərqdə böyük dövlətçilik ənənəsinin mövcudluğunu isbat edən qüdrətli şəxsiyyətlər olublar.

Konfransda Özbəkistanın ölkəmizdəki səfiri Şerzod Fayziyev Zahirəddin Məhəmməd Baburun zəngin yaradıcılığının bu gün qarşılıqlı ədəbi əlaqələrimizin inkişafı üçün mükəmməl zəmin formalaşdırdığını bildirib.

Milli Məclisin Aqrar komitəsinin sədri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin tarixindən, müasir inkişaf səviyyəsindən bəhs edib.

Hindistanın ölkəmizdəki səfiri Sanjay Rana Zahirəddin Məhəmməd Baburun zəngin dövlətçilik fəaliyyətindən, şair kimi yaradıcılığından danışıb.

Beynəlxalq konfransda Daşkənd Milli Universitetinin professoru Həmidullah Baltabəyevin "Özbəkistanda Zahirəddin Məhəmməd Babur yaradıcılığının öyrənilməsi", Beynəlxalq Babur Fondunun Azərbaycan bölməsinin sədri, filologiya elmləri doktoru Almaz Ülvinin "Baburoğulları dönəmində Hindistanda memarlıq və inşəsənət: Humayun türbəsi və onun memarı", filologiya elmləri doktoru Yaşar Qasımbəylinin "Zahirəddin Məhəmməd Baburun lirikası: dövlətçilik və şeiriyyət" və dosent Akif Azalpın "Baburnamə" ümumtürk intibahının milli ensiklopediyası kimi" mövzularında məruzələri dinlənilib.





PETRONAS TEXNOLOJİ UNİVERSİTETİNDƏ TƏQAÜDLƏ TƏHSİL PROQRAMI HAQQINDA TƏQDİMAT

Martın 28-də Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin kimya mühəndisliyi, neft mühəndisliyi ixtisaslarının tələbələri üçün PETRONAS şirkətinin Azərbaycan nümayəndəliyinin təqdimatı keçirildi. Təqdimat PETRONAS şirkətinin kimya mühəndisliyi, neft mühəndisliyi ixtisasları üzrə təhsil alan tələbələrə təhsillərini Malayziyanın Universiti Teknologi PETRONAS (UTP) universitetində davam etdirmək üçün elan etdiyi tam təqaüd proqramına həsr edilmişdi. Öncə şirkətin nümayəndəsi Aysel Allahverdiyeva şirkət haqqında məlumat verərək, bildirdi ki, PETRONAS dünya neft-qaz şirkəti yarandığı andan dünyanın 35 ölkəsində biznes maraqları ilə, inteqrasiya olunmuş Malayziyanın beynəlxalq neft-qaz şirkətidir. Sonra isə təqaüd proqramı haqqında tələbələrə geniş məlumat verildi.

Təqdimatın sonunda şirkət nümayəndələri tərəfindən tələbələrin sualları cavablandırıldı.

Qeyd edək ki, şirkət neft-qaz sektorunda geniş sahəli fəaliyyəti ilə fərqlənir. 1975-ci ildən etibarən PETRONAS 36.000-dən çox layiqli və bacarıqlı tələbəyə təhsil potensialını yüksək səviyyədə həyata keçirmək üçün təqaüd təklif etmişdir. Bu tələbələr yüksək performans göstərmək, zehniyyət, güclü liderlik və sərhədləri aşmaq bacarıqları ilə fərqlənmişlər.

PRESENTATION ON A SCHOLARSHIP PROGRAM AT UNIVERSITI TEKNOLOGI PETRONAS

Representative office of PETRONAS Company in Azerbaijan held a presentation for students of Oil Engineering specialty, the School of Engineering and Applied Sciences of Khazar University. The presentation was about full scholarship program at Universiti Teknologi PETRONAS (UTP) for students of Oil Engineering specialty, the School of Engineering and Applied Sciences. Aysel Allahverdiyeva, a representative of the company, talked about the company, and mentioned that the PETRONAS, an International Malaysian oil and gas company, operates in 35 countries merging business and oil sectors. Then Aysel Allahverdiyeva delivered full information on the scholarship program. Company representatives also answered students' questions.

PETRONAS is a distinguished company in oil and gas sector. Since 1975, PETRONAS has provided more than 36.000 students, who are prominent for their knowledge and leadership skills, with scholarship programs.



AESOP ERASMUS+ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARINA TƏLİM KEÇİRİLDİ

KHAZAR UNIVERSITY STAFF MEMBERS PARTICIPATE IN A TRAINING WITHIN AESOP ERASMUS+ PROJECT

Martın 29-da "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) Erasmus+ layihəsi çərçivəsində Ombudsman Mərkəzinin təşəbbüsü ilə Xəzər Universitetinin əməkdaşlarına təlim keçirildi. Təlimin əsas məqsədi universitet əməkdaşlarını universitetin strukturu, fakültələrin və departamentlərin vəzifələri, nizam-intizam qaydaları, tələbələrin hüquq və öhdəlikləri və s. haqqında ətraflı məlumatlandırmaq idi.

Bununla yanaşı, tədbir zamanı AESOP layihəsi və yeni yaradılmış Ombudsman Mərkəzi haqqında da məlumat verildi. İştirakçılar fikir mübadiləsi aparıb, öz təkliflərini irəli sürdülər.

Qeyd edək ki, "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) Erasmus+ layihəsi çərçivəsində 2018-ci il fevralın 7-də Xəzər Universitetində Ombudsman Mərkəzi yaradılmışdır.

On March 29, on the initiative of Ombudsman Office, Khazar University staff members were involved in a training "Advocacy Establishment for Students through Ombudsman Position" within AESOP Erasmus+ project. The main aim of the training was to enlighten the staff members on the structure of the university, obligations of Schools and Departments, internal discipline, rights and duties of students, etc.

Moreover, training participants were informed about the AESOP project as well as Ombudsman Office established within this project. 36 staff members participated in the training, and exchanged views and made suggestions.

Ombudsman Office was established at Khazar University on February 7, 2018, within "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) Erasmus+ project.



"MİQRASİYANIN İQTİSADİ VƏ SOSİAL ASPEKTLƏRİ: ÇAĞIRIŞLAR VƏ MİQRASİYA SİYASƏTİ" MÖVZUSUNDA SEMİNAR - TƏLİM

SEMINAR - TRAINING ON "ECONOMIC AND SOCIAL ASPECTS OF MIGRATION: CHALLENGES AND MIGRATION POLICY"

Martın 30-da Xəzər Universitetində İqtisadiyyat və menecment fakültəsi, Miqrasiya Araşdırmalar Mərkəzi və İnkişaf Mərkəzinin təşkilatçılığı ilə Erasmus+ "Universitetdə miqrasiya təhsilinin təşviqi" layihəsi çərçivəsində "Miqrasiyanın iqtisadi və sosial aspektləri: çağırışlar və miqrasiya siyasəti" mövzusunda bir günlük seminar-təlim keçirildi. Alikante Universitetinin (İspaniya) əməkdaşları Dr.Oana Driha və Dr. Maria-Jemenez Delgado miqrasiya və iqtisadi inkişaf, miqrasiyanın sosial-mədəni aspektləri, miqrasiya və təhsil mövzularında təlimlər keçirdilər.

On March 30, a seminar-training on "Economic and social aspects of migration: challenges and migration policy" was held at Khazar university, within Erasmus + "Promoting migration education at universities" project, with the organizational support of School of Economics and Management, the Migration Competence Centre, and the Development Office. Trainers Dr. Oana Driha and Dr. Maria-Jemenez Delgadodur, from the University of Alicante, Spain delivered the training session on topics migration and economic development, social and cultural aspects of migration, migration and education.









Təlimdə Xəzər Universitetinin tələbələri və əməkdaşları ilə yanaşı, layihənin koordinatoru İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinin əməkdaşı Dr. Nino Parsadanişvili, Bakı Mühəndislik Universitetinin tələbə və əməkdaşları, Sumqayıt Dövlət Universiteti və Naxçıvan Dövlət Universitetindən nümayəndələr, ADA Universitetinin tələbələri, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı və Beynəlxalq Miqrasiya Təşkilatının əməkdaşları iştirak edirdilər. Seminar-təlim, həmçinin, layihə haqqında məlumatın ölkəmizin ali təhsil müəssisələri arasında yayılması məqsədi daşıyırdı.

Sonda iştirakçılara sertifikat verildi.

Alikante Universitetinin əməkdaşları Dr.Oana Driha və Dr. Maria-Jemenez Delgado və layihənin koordinatoru İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinin əməkdaşı Dr. Nino Parsadanişvili Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdülər və gələcək əməkdaşlıq haqqında müzakirələr apardılar.

The training was attended by Dr. Nino Parsadanishvili, the coordinator of the project, representative of the Ivane Javakhishvili Tbilisi State University; students and staff of the Baku Engineering University; representatives of Sumgayit State University and Nakhchivan State University; students of ADA University; representative of the Azerbaijan State Migration Service and representatives of the International Organization for Migration and the students and staff members of Khazar University. Moreover, the aim of the seminar-training is to disseminate information on the above-mentioned issues among the universities of Azerbaijan. At the end, the participants were presented certificates.

The Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees received the guests from the University of Alicante and the Ivane Javakhishvili Tbilisi State University and they discussed future collaboration among universities.







DİSSERTASİYA İŞİNİN İLKİN MÜZAKİRƏSİ

Aprelin 5-də Xəzər Universitetində universitetin İngilis dili və ədəbiyyatı departamentinin dissertantı Milana Abbasovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "İngilis dilinin tədqiqinə sosiolinqvistik yanaşmada müasir tendensiyalar" adlı dissertasiya işinin departament üzrə müzakirəsi keçirildi. İclasa Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri dosent Eldar Şahgəldiyev sədrlik edirdi. Elmi işin rəhbəri professor Fəxrəddin Veysəllidir.

Müzakirələrdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Azərbaycan Dillər Universitetinin əməkdaşları – professor Fəxrəddin Veysəlli (elmi rəhbər), professor Əfqan Abdullayev (rəyçi), dosent Amil Cəfərov (rəyçi), dosent Cəmil Balayev, dosent Qələmşah Heybətov, filologiya üzrə fəlsəfə doktoru İrina Orucova, filologiya üzrə fəlsəfə doktoru Elmira Əliyeva dissertasiya işi haqqında fikirlərini bildirdilər.

Müzakirənin sonunda dissertant iclasın iştirakçılarının müsbət rəyini alaraq, müdafiənin növbəti mərhələsinə buraxıldı.

THE PRELIMINARY DISCUSSION OF A DISSERTATION

On April 5, the pre-defence discussion of the dissertation entitled "Contemporary Trends in Sociolinguistic Approach to the Study of English Language" was held in the Department of English Language and Literature. The dissertation was submitted by Milana Yusif Abbasova, PhD student of the Department of English Language and Literature, to receive a PhD degree in Philology. Assoc. Prof. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, ran the discussion meeting. The dissertation was supervised by Prof. Fakhraddin Veyselli.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, Prof. Fakhraddin Veyselli (supervisor), Prof.Afgan Abdullayev (reviewer), Assoc.Prof.Amil Jafarov (reviewer), Assoc.Prof. Jamil Balayev, Assoc.Prof. Galamshah Heybatov, Irina Orujova, PhD in Philology, and Elmira Aliyeva, PhD in Philology, expressed their views on the dissertation.

Upon discussion, the dissertation was approved by the participants and recommended for the next stage of defence.



XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ "PEER TO PEER: FACEBOOK QLOBAL RƏQƏMSAL ÇAĞIRIŞI" MÜSABİQƏSİNDƏ

PEER to PEER START Project

STUDENTS OF KHAZAR UNIVERSITY IN "PEER TO PEER: FACEBOOK GLOBAL DIGITAL CHALLENGE"

Xəzər Universiteti 2017-2018-ci tədris ilinin yaz semestrində dünya universitet gənclərinin təşəbbüsü ilə təşkil olunan "Peer to Peer: Facebook Qlobal Rəqəmsal Çağırışı" beynəlxalq müsabiqəsində iştirak edirlər. Bu, universitetin müsabiqədə dördüncü iştirakıdır. Müsabiqədə iştirak edən komandalar öz cəmiyyətlərini narahat edən ekstremizm halları ilə mübarizəyə töhvəyə verən rəqəmsal marketinq kampaniyası hazırlamalı və tətbiq etməlidirlər.

Bu semestrdə Xəzər Universitetini İqtisadiyyat və menecment departamentinin tələbələrindən ibarət "The Same" komandası təmsil edir. Komandaya bir koordinator və altı tələbə daxildir: Bahadır Baysal (İqtisadiyyat və menecment departamentinin koordinatoru), Ruslan Osmanlı (Menecment, bakalavr), Sinan Rzayev (Mühasibatlıq və audit, bakalavr), Xəyalə Şıxəliyeva (Mühasibatlıq və audit, bakalavr), Taliyə Hüseynzadə (Maliyyə, bakalavr), Etibar Saatov (Maliyyə, bakalavr) və Aslan İsaxanlı (Menecment, bakalavr).

Komandanın məqsədi irqçiliyin aradan qaldırılması, eləcə də, dini, irqi və milli ayrı-seçkilik aparmadan insanların bir-birinin fikrinə hörmət bəsləməsini təşviq etməkdir. Komanda öz fəaliyyəti ilə irqindən, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün insanların bərabər olması faktını göstərməyə çalışacaq.

Komanda və onun fəaliyyəti ilə yaxından tanış olmaq üçün aşağıdakı səhifələrə baxmaq olar:

Website:
https://thesameaze.wixsite.com/thesame

Instagram:
https://www.instagram.com/thesame.aze/

Facebook:
https://m.facebook.com/profile.php?id=876907239143157&ref=content_filter

In the Spring semester of 2017-2018 academic year Khazar University is participating in "Peer to Peer: Facebook Global Digital Challenge", a global university youth initiative and an international competition. This is the fourth time that the university takes part in this global challenge. Each participating team must design and carry out a digital marketing campaign targeting extremism that resonates with their community.

This semester Khazar University is represented by a team of students from the Department of Economics and Management called "The Same". The team includes six students and a team coordinator: Bahadir Baysal (Coordinator of Economics and Management Department), Ruslan Osmanli (Management; BBA), Sinan Rzayev (Accounting and auditing; BBA), Khayala Shikhaliyeva (Accounting and auditing; BBA), Taliya Huseyinzada (Finance; BBA), Etibar Saatov (Finance; BBA), and Aslan Isaxanli (Management; BBA)

The goal of the team is to stop racism and promote respect to each other's' opinions without discrimination by religion, race, and nationality. Through its activities the team aims to show that regardless of race, nationality or religion, people are all the same.

For more information about the team and its activities, visit the following pages:

Website:
https://thesameaze.wixsite.com/thesame

Instagram:
https://www.instagram.com/thesame.aze/

Facebook:
https://m.facebook.com/profile.php?id=876907239143157&ref=content_filter







"THE SAME" KOMANDASININ TƏQDİMATI

Aprelin 6-da Xəzər Universitetinin Mərmər zalında "The Same" komandasının təqdimatı oldu. Tədbirdə "Biz kimik?", "Nə iş görürük?" sualları cavablandırıldı.

Tədbirin birinci hissəsində komandanın üzvü Sinan Rzayev giriş sözü ilə qonaqları salamladı. Sonra Taliyə Hüseynzadə "P2P Facebook Digital Challange", Ruslan Osmanlı "Rasizm nədir?", Xəyalə Şixəliyeva "Rasizmin tarixi" və Etibar Saatov "Niyə bu mövzunu seçdik?" mövzularında qonaqları məlumatlandırdılar.

İkinci hissədə universitetin müəllimi, fəlsəfə doktoru Mail Yaqub rasizm, rasizmin növləri və bu mövzuya elmi yanaşma ilə bağlı fikirlərini bölüşdü. Dr.Bahadır Baysalın "1 dəqiqəlik gözünüzü yumun və özünüzü onların yerində təsəvvür edin," – deməsi auditoriyanı düşünməyə vadar etdi. Sonda tələbələr "Unity" rəqsi oynayaraq, bütün irqlərin birliyini göstərməyə çalışdılar.

Bu linklər vasitəsilə daha çox məlumat əldə etmək olar:

https://www.instagram.com/thesame.aze/

https://m.facebook.com/thesame.aze/?ref=bookmarks



THE PRESENTATION OF "THE SAME" TEAM

On April 6, "The Same" team held a presentation in the "Marble" hall of Khazar University. During the presentation, team members answered the questions such as "Who are we?" and "What are we engaged in?".

In the first part of the presentation, Sinan Rzayev, a team member, greeted the participants. Then the team members delivered presentations on the following topics: Taliya Huseynzdeh "P2P Facebook Digital Challange", Ruslan Osmanli "What is racism?", Khayala Shikhaliyeva "History of racism", and Etibar Saatov "Why did we choose this topic?".

In the second part, Mail Yagubov, PhD in Philosophy, shared his views on racism, its types and scientific approach to racism. The audience felt obliged to think over Dr. Bahadir Baysalm's suggestion "Close your eyes and put yourselves in their shoes." At the end of the ceremony, the students performed "Unity" dance to express solidarity with all races.

For more information:

https://www.instagram.com/thesame.aze/

https://m.facebook.com/thesame.aze/?ref=bookmarks





TARİXÇİ "TÜRK XALQLARININ MƏDƏNİYYƏTİ TARİXİ" DƏRSİNİN QONAĞI OLDU

HISTORIAN PARTICIPATES IN THE LESSON "HISTORY OF THE CULTURE OF TURKISH PEOPLE"

Aprelin 4-də tarix üzrə araşdırmaçı Əkbər N. Nəcəf Xəzər Universiteti Tarix və arxeologiya departamentinin qonağı oldu. Xəzər Universitetində tədris olunan "Türk xalqlarının mədəniyyəti tarixi" dərsində türklərin İslam dinini qəbul etməsi və Türk-İslam mədəniyyətinin əsaslarına dair mühazirə oxuyan Ə. N. Nəcəf o, dövrün formalaşma mərhələsi olaraq 400 illik tarixə sahib Qaraxanlılar dövrü haqqında tələbələrə məlumat verdi.

Diskussiya şəklində keçən dərsdə tədqiqatçı tələbələrin suallarını cavablandırdı.

On April 4, Akbar Najaf, a historian, paid a visit to the Department of History and Archeology of Khazar University. Akbar Najaf delivered a lecture on conversion of Turkish people to Islam and basis of Turkish-Islamic culture. He also informed the students about Garakhanlilar who reigned 400 years which is considered the period of development of Turkish culture.

During the interactive lecture, Akbar Najaf answered the students' questions.





TƏDQİQAT METODLARINA AİD TƏLİM

Aprelin 12-də Xəzər Universitetində tədqiqata dəstək məqsədilə növbəti seminar-təlim keçirildi. Dəvət edilmiş məruzəçi - Azərbaycan Tibb Universitetinin Tibbi fizika və informatika kafedrasının baş müəllimi, fizika və riyaziyyat elmləri üzrə fəlsəfə doktoru İsmayıl Qafarov "Elmi tədqiqatlar və məlumatların təhlili sahəsində effektiv statistik metodlar" mövzusunda məruzə etdi.

WORKSHOP ON RESEARCH METHODS

On April 12, another workshop was held in support of research at Khazar University. Ismayil Gafarov, senior instructor of the Department of Medical Physics and Informatics of Azerbaijan Medical University, PhD in Physics and Mathematics, ran the workshop. He delivered the first presentation on the topic "Effective statistical methods in research and data analysis".





23 SAYLI TAM ORTA MƏKTƏBDƏ TƏQDİMAT

Aprelin 6-da Xəzər Universiteti aparıcı yerli orta məktəblərdən biri olan 23 saylı tam orta məktəbdə təqdimat keçirdi. Təqdimatın əsas məqsədi Xəzər Universiteti, onun təklif etdiyi ixtisas və proqramlar barədə məktəbin müəllimlərinə və şagirdlərə məlumat vermək idi. Təqdimatda beş nəfərdən ibarət komanda iştirak edirdi: Potensial tələbələr üzrə işçi qrupunun koordinatoru, professor Fuat Rəsulov, Karyera mərkəzinin meneceri Səbinə Allahverənova, HR koordinatoru Ozal Məmmədli, Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova və hazırda Xəzər Universitetində beynəlxalq münasibətlər və diplomatiya üzrə bakalavr dərəcəsi alan Zimbabvedən xarici tələbə Tendai Samantha Shereni.

Təqdimatı Turan Cəfərova keçirdi və Xəzər Universiteti haqqında ümumi məlumat verdi. Professor Fuat Rəsulov orta məktəb şagirdlərinin nəyə görə Xəzər Universitetinin bakalavr səviyyəsində təhsilini davam etdirmələrinin səbəbləri barədə danışdı. Turan Cəfərova universitetin beynəlxalq strategiyası, universitetin iştirak etdiyi tələbə mübadilə proqramları, ikili diplom proqramı və digər proqramlar barədə danışmaq üçün yenidən səhnəyə çıxdı. Zimbabveli xarici tələbə Tendai Samantha Shereni təhsillə bağlı öz təcrübəsini paylaşaraq, onlara nə üçün Azərbaycanda oxumaq qərarına gəldiyini və niyə məhz Xəzər Universitetini seçdiyi barədə danışdı, şagirdləri gələcək təhsillərini Xəzər Universitetində davam etdirməyə çağırdı.

Təqdimat sual-cavab hissəsi ilə başa çatdı. Xəzər Universitetinin təqdimat materialları şagirdlərə təqdim olundu.

PRESENTATION AT SCHOOL N23

On April 6, Khazar University conducted a presentation at school N23, one of the leading local secondary schools.

The main aim of the presentation was to provide information about Khazar University, its programs, and resources. A team consisting of five people participated in the presentation: Fuat Rasulov, professor of the School of Economics and Management, Sabina Allahverenova, Manager of Career Center, Ozal Mammadli, HR Coordinator, Turan Jafarova, Director of International Affairs Office, and Tendai Samantha Shereni, an international student from Zimbabwe who is currently pursuing her bachelor's degree in International Relations and Diplomacy at Khazar University.

Turan Jafarova started the presentation and provided general information about Khazar University. Prof. Fuat Rasulov spoke about the reasons why high-school students should select Khazar University to continue their studies at a Bachelor's level. Turan Jafarova took the stage again to speak about the university's internationalization strategy, exchange programs that the university participates in, double degree and other programs. Tendai Samantha Shereni, the international student from Zimbabwe, shared her experience studying at Khazar, she told students why she decided to come to Azerbaijan and why she chose Khazar and encouraged students to apply.

The presentation ended with a question and answer session. Promotional materials of Khazar University were presented to high-school students.

XƏZƏR UNİVERSİTETİ ƏMƏKDAŞININ HOHAİ ARAŞDIRMA FORUMUNUN SEMİNARINDA ONLAYN İŞTİRAKI

KHAZAR UNIVERSITY STAFF MEMBER IN AN ONLINE WORKSHOP OF HOHAI RESEARCH FORUM



Aprelin 11-də Xəzər Universitetinin *Khazar Journal of Humanities and Social Sciences* ("Xəzər humanitar və sosial elmlər jurnalı") beynəlxalq elmi jurnalının baş redaktor assistenti, sosial elmlər üzrə fəlsəfə doktoru Xəyalə Məmmədova onlayn rejimdə Hohai Universitetinin (Çin Xalq Respublikası) Beynəlxalq əməkdaşlıq ofisinin təşkil etdiyi Hohai Araşdırma Forumunun növbəti seminarında iştirak etmişdir.

Hohai Universitetinin Biznes fakültəsinin dekanı, Beynəlxalq əməkdaşlıq ofisinin direktoru professor Vanq Qun (Wang Qun) seminarı açaraq, Hohai Araşdırma Forumunun əhəmiyyətindən danışmışdır.

Seminar təşkilatçısı Mudassar Sarfraz indiyə qədər forumun xarici ekspertlərin iştirakı ilə həyata keçirdiyi seminarlar haqqında məlumat verərək, beynəlxalq əməkdaşlıqlarını da yüksək səviyyədə inkişaf etdirdiklərini qeyd edəndən sonra sözü X. Məmmədovaya vermişdir.

X. Məmmədova məruzəsində mühüm elmi-tədqiqat nəticələrinin əldə olunmasında və təbliğində böyük əhəmiyyətə malik olan beynəlxalq elmi bazaların imkanlarından istifadə metodları, yüksək indeksli beynəlxalq jurnallarda məqalələr üçün qoyulan tələblər, müasir beynəlxalq jurnalların idarə edilmə prinsipləri, elmi-tədqiqat metodları, elmi məqalələrin təqdimetmə qaydaları və digər praktiki məsələlərlə bağlı seminar iştirakçılarına geniş məlumat vermiş, onların suallarını cavablandırmışdır. Seminar iştirakçıları Hohai Universitetinin müxtəlif fakültələrində təhsil alan və çalışan gənc alimlər və doktorantlar idi.

On April 11, Khayala Mammadova, PhD in Social Sciences and Assistant Editor-in-Chief of Khazar Journal of Humanities and Social Sciences, an international scientific journal, participated in the next online workshop of Hohai Research Forum, organized by International Cooperation Office of Hohai University (People's Republic of China).

Prof. Wang Qun, Dean of School of Business and Director of International Cooperation Office, opened the workshop and mentioned the importance of Hohai Research Forum.

Mudassar Sarfraz, an organizer of the workshop, talked about workshops held so far with the participation of international experts and stressed that international relations of the forum had developed considerably. Then he offered the floor to Khayala Mammadova.

Khayala Mammadova delivered a report on methods of use of an international scientific database which is of huge importance for conducting research and disseminating its findings. Moreover, she talked about publication requirements of international journals with high impact factor, management principles of modern journals, research methods, presentation methods of scientific articles and other practical issues, and answered questions of participants who were young scientists and PhD students of Hohai University.



NANOTEXNOLOGİYA LABORATORİYASININ TƏDQİQATÇISI BEYNƏLXALQ JURNALIN REDAKSİYA HEYƏTİNƏ ÜZV SEÇİLDİ

RESEARCHER OF NANOTECHNOLOGY LABORATORY IS SELECTED AS A MEMBER OF EDITORIAL BOARD OF INTERNATIONAL MAGAZINE

Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin əməkdaşı və Nanotexnologiya laboratoriyasının tədqiqatçısı Dr. Rasoul Moradi Amerika Birləşmiş Ştatlarında nəşr olunan "Drug Resistant Pathogen Research Journal"-ın redaksiya heyətinə üzv seçilmişdir.

Əlavə məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://openaccesspub.org/journal/jdrpr/editorial-board

https://openaccesspub.org/editor-profile/rasoul-moradi-1530

Qeyd edək ki, Dr.Moradi dərman vasitələrinin ixtirası və daşınması sahəsində tədqiqatlar aparmaq məqsədilə yeni qurulmuş Nanotexnologiya laboratoriyasında lazımi infrastrukturun qurulması üzərində işləyir. O, Xəzər Universitetinin əməkdaşı kimi beynəlxalq indeksə malik olan jurnallarda 20-dən çox məqalə dərc etdirmişdir:

https://www.scopus.com/authid/detail.uri?authorId=39661183900

Dr. Rasoul Moradi, the researcher of Nanotechnology Lab. and the Faculty member of the School of Engineering and Applied Sciences, has been selected as a member of the editorial board of *Drug Resistant Pathogen Research Journal* in United States of America.

https://openaccesspub.org/journal/jdrpr/editorial-board

https://openaccesspub.org/editor-profile/rasoul-moradi-1530

Dr. Moradi is currently implementing the required infrastructure in the recently founded Nanotechnology Lab. for performing research in the fields of Drug delivery and discovery. He has more than 20 ISI publications as a Khazar University staff member.

https://www.scopus.com/authid/detail.uri?authorId=39661183900



HEKAYƏNİN MAHİYYƏTİ VƏ YAZARIN XƏYALLARI

(7 may 2014-cü ildə Ankara`da "Uluslararası 14-cü Öykü Günləri"ndə edilmiş məruzə əsasında)

Əvvəli ötən nömrədə

Qısalıq aşiqi

Anton Çexov qardaşı Aleksandr Çexov`a məktubunda yazırdı: "...nə qədər çox ixtisar etsən, səni o qədər tez-tez çap edirlər" (4 yanvar 1886). Ona ünvanlanmış digər tövsiyə məktubunda qısalığın və şəxsi duyumun vacibliyini vurğulayır: "həftədə iki hekayədən artıq yazma, onlar üzərində işlə, ixtisar et, qoy əməyin əsl əmək olsun. Özün hiss etmədiyin, rastlaşmadığın əzablar uydurma və görmədiyin mənzərəni çəkmə, çünki hekayədə yalan damışıqdakı yalandan daha çox dərixdırıcıdır... hər sətir üzərində dur ki, başdansovma olmasın" (6 aprel 1886).

Ümumiyyətlə, Çexov`un nisbətən təcrübəsiz yazar qardaşı Aleksandr`a (və ümumiyyətlə, nisbətən təcrübəsiz digər yazarlara) verdiyi məsləhətlərin canı qısalıqdadır: "siyasi-sosial-iqtisadi təbiətli uzun sözdüzəltmələr olmasın,..., xüsusən qısalıq,..., təbiət təsvirləri çox qısa olmalıdır..." (10 may 1886). Qısalıq, sanki, Çexov`a hakim kəsilən düşüncədir. Bu barədə daha bir neçə misala müraciət edirəm. M.V. Kiselyova`ya məktubundan: "Çox yazıram... birini bitirməmiş o birini başlayıram... Bir oturuma yazın - öz qələminizə tam inamla... 8-10 səhifəyə çatan kimi həmən durun" (21 sentyabr 1886). N.A. Leykin`ə məktubunda (7 oktyabr 1886) tanış bir xanımın hekayəsini təqdim edir: "hekayə... ən başlıcası qısadır (qadınlar istisna hallarda qısa yazırlar!), bir qədər sentimentaldır, amma bunun əhəmiyyəti yoxdur". N.A. Leykin`ə yazdığı digər bir məktubdakı fikir, zənnimcə, Çexov`u qısalıq aşiqi və ya qısalıq pedantı kimi səciyyələndirməyə müəyyən əsas verir: "mənсə məktublarda tarixi göstərmək xurafatdır və lazımsız bəzəkdir" (6 noyabr 1886). Çexov`un "qısalıq istedadın qardaşıdır/bacısıdır (qardaşı Aleksandr Çexov`a məktub, 11 aprel 1889) fikri məşhurdur. Yazdığı məktubların qısa olmasına çalışırdı: "Ofl Öz saqqız uzunçuluğumla Sizi yordum... Tənqidin belə uzun çıxacağını bilsəydim, yazmazdım...Lütfən, bağışlayın!" (M.V. Kiselyova`ya məktub, 14 yanvar 1887).

Böyük riyaziyyatçı Ömər Xəyyam dünyada daha çox öz rübailəri ilə məşhur olmuşdur. Xəyyam müdrik poetik fikri cəmi dörd misrada yığcam ifadə etmək ustalığı ilə yanaşı riyaziyyat, fəlsəfə, mexanika və musiqi üzrə orijinal tədqiqat və şərhlərində də öz qısalığı ilə seçilir. Xəyyam irihəcmli əsər yazmamışdır; mütəxəssislər ona aid edilən yeganə nisbətən iri həcmli tarixi-etnoqrafik əsərin - "Novruznamə"nin olsa-olsa yalnız bir hissəsinin Xəyyama məxsus ola biləcəyini deyirlər (Mehdi Amin Razavi. The Wine of Wisdom/ The Life? Poetry and Philosophy of Omar Khayyam. One World. Oxford, 2007). Görünür ki, qısa yazmaq bəzi elm və sənət adamının üslubuna, özünü ifadə tərzinə çevrilə bilir.

Çexov və iri həcmli əsər yazmaq arzusu

Hekayəçi yazarı digər yazardan, məsələn, əsasən roman yazanlardan fərqləndirən xüsusiyyətlər varmı? Varsa nədir onlar? Bir yazarın roman deyil, əsasən hekayə yazmasının bir səbəbi varmı? Hekayəçi yazar hekayə yaradıcılığı ilə özünü xoşbəxt sanırmı? Belə bir fikir mövcuddur ki, "xalis" hekayəçilər arasında məşhurlar romançı məşhurlardan xeyli azdır. Poeziyada uzun və ya süjetli şeir ("poema"), başqa sözlə, mənzum roman Goethe, Byron, Puşkin zamanı ilə müqayisədə, hətta bizə yaxın olan

Səməd Vurğun dövrünə nəzərən indi dəbdə deyil. Nəsrdə vəziyyət fərqlidir.

Edgar Allan Poe hekayəni romandan üstün sayır, bununla o, əlbəttə, özünə inamını da ifadə edirdi (The Philophy of Composition, essay, 1846). Çexov belə deyil, tərsinə, yazarın öz əsas sözünü romanla deyə biləcəyini düşünürdü. Çexov`dan öncə yaşayıb-yaradan rus yazarlarının əksəriyyəti, xüsusilə, L. Tolstoy, Dostoevskiy, Turgenev, hətta şairlərdən Puşkin və Lermontov iri həcmli roman yazıblar. Hekayə ustası olan Çexov roman yazmayıb və Rus nəsrində bu mənada istisnadır. Bəlkə Çexov özü iri həcmli əsər yazmaq istəməyib, roman yazmaq xoşuna gəlmirmiş?

Yaşlı nəslin təmsilçisi yazar Dmitriy Qriqoroviç (1822-1900) Çexov`a onun yaradıcı istedadını yüksək qiymətləndirən bir məktub göndərmiş (1886), daha gözəl və irihəcmli əsərlər yazmağa çağırmış, onu bu işin vacibliyinə inandırmışdı. Bu məktubdan ruhlanan Çexov Qriqoroviç`in sözlərindən çox xoşlandığını gizlətmir, tanışlarına ünvanladığı məktublarda bu barədə yazmış, yazıçı Viktor Bilibin`ə "qoca (*Qriqoroviç* –H.İ.) məndən işlərimi təcili atmağı və nəsə iri bir şey yazmağımı tələb edir" deyə xəbər vermişdi (4 aprel 1886). Qriqoroviç`in özünə yazdığı cavab məktubunda isə, onunla razılaşdığını bildirmişdi: "Elə bir hekayəmi xatırlamıram ki, onun üzərində bir gündən artıq işləmiş olum... Bütün ümid gələcəyədir. Mənim cəmi 26 yaşım var." (28 mart 1986).

İri həcmli əsərləri çətin sayır, həmçinin, onlara hörmət edirdi. Lakin, Çexov`un yaradıcı yazı üslubu genişlətmək deyil, qısaltmaq üzərində qurulmuşdu, o həmişə yazılarının ilkin variantını qısaltmağa çalışırdı. 1883-də "Oskolki" dərgisinin redaktoru N.A. Leykin`ə məktubda (ay və gün məlum deyil) "İsveç kibriti" hekayəsini nəzərdə tutaraq yazırdı: "mənim Traqik`imin taleyi necədir? Çərçivələr olmasa yaxşı hekayə çıxardı... Hətta əsas mətləbini və duzunu da məhdudlaşdırmalı oldum... bu mövzuda tam bir povest də yazmaq olardı". Eyni adama eyni ildə digər məktubundan: "Mən yolu azdım və bir çap vərəqi həcmində (*1970-ci il əsərləri kitablarında 20 səhifə*-H.İ.) *nəhəng bir hekayə yazdım*" (*kursiv*-H.İ.). Çoxplanlı kimi görünən bir neçə hekayəsini "roman" adlandırmışdı, sanki onlar yazmaq istədiyi romanların planları idi ("Hesablı nikah", "Yaşıl meşə zolağı", "Kommersiya müşavirinin qızı", "Bekarçılıqdan", "Ninoçka", "Üç il"). "Çaxnaşma" adlı hekayə ilk dəfə "Romandan parça" adı ilə çap olunmuşdu ("Peterburqskaya qazeta", 1886, № 33). Çexov kiçik həcmli hekayə yazmağı daha yaxşı bacardığını etiraf edirdi: "Ümumiyyətlə, böyük şeylərlə müqayisədə kiçikləri qat-qat daha yaxşı yazmaq olur - iddia azdır, uğur isə var... Bundan artıq nə lazımdır?!" (M.V. Kiselyova`ya məktub, 14 yanvar 1887). Eyni fikri A.N. Pleşeev`ə yazdığı məktubda təkrar etmişdi (19 yanvar 1888). Çexova xas olan güclü ölçü hissi və konkretlik onu uzunçu olmaq imkanından məhrum edirdi.

Hekayə yaza-yaza yol gedir, üfüqdə gözünə roman görünür, ora çatmağı arzu edir, lakin çatacağına əmin olmadığını göstərirdi: "Kiçik iş üçün oturmağa tələsirəm, lakin, məndə yenə nəsə bir böyük işdən yapışmaq həvəsi yaranır. Ah, bilsəydiniz başımda neçə bir roman süjeti əyləşib! Neçə qəşəng qadınlar! Neçə dəfn mərasimləri, neçə toylar! Pulum olsaydı Krıma qaçardım, orada sərv ağacı altında oturub 1-2 aya roman yazardım. Təsəvvür edin ki, artıq üç səhifəm hazırdır! Bununla belə, düz demirəm: əlimdə pul olsaydı, elə fırladardım ki, bütün romanlar kəlləmayallaq uçub gedərdi" (Pleşeev`ə məktub, 9 fevral 1888).

Əslində, Çexov şeir və roman xaricində özünü geniş əhatəli yazar sayırdı: "Bundan əlavə, mənim geniş döyüş meydanım və zəngin seçimim var; roman, şeir və çuğulluq xaricində hər şeyi sınaqdan keçirmişəm" (Pleşeev`ə məktub, 14 sentyabr 1889) Çexov əsəri uzatmaq əvəzinə yenisini yazmağa başlayırdı; onun, sanki, mövzu problemi yox idi. Mövzu da adi, sözlər də, arzulayan, amma əlindən iş gəlməyən qəhrəmanlar da... Nabokov demişkən, Çexov mətnaltı mənaya mühüm rol verir və mətni uzatmağa ehtiyac duymurdu: "Çexov heç vaxt əsl uzun roman yaza bilməzdi - o sprinter idi, stayer deyil" (Vladimir Nabokov. səh. 326).

Əks qütbdə duran, hadisələri yavaş-yavaş, tələsmədən inkişaf etdirən üsluba malik yazarlarla müqayisə üçün böyük roman ustası V. Hugo yaradıcılığından bir misal gətirirəm: "Səfillər"in baş qəhrəmanı Jean-Valjean əsər başlayandan xeyli sonra (14 fəsilli birinci kitabdan sonra) meydana çıxır, digər qəhrəman - Javert isə ilk dəfə xeyli daha sonra görünür."

"Çöl" və həcmli yazıdan qaçış

Çexov`un avtoqrafik, etnoqrafik yol qeydləri və təbiət təsvirləri ilə dolu iri həcmli "Çöl" əsəri (1888) diqqəti çox cəlb etmişdi, onu Çexov`un "böyük ədəbiyyatda" debütü kimi görənlər vardı. Çexov özü isə bu barədə naqüman idi (*Mənim "Çöl"üm povestə deyil, çöl ensiklopediyasına bənzəyir*" - Suvorin`ə məktub, 3 fevral 1888), əsər üzərində işləyərkən əzab çəkdiyini deyirdi. "... İri bir şeyə başlamışam... uzun yazma adətim olmadığından, vərdiş etdiyimdən artıq bir şey yazmaq qorxusundan ifrata

qapılıram. Bütün səhifələr məndə yığcam, sanki sıxılmış kimi alınır... İndi belə çıxır ki, hələ böyük şeylər yaza bilmirəm" (D.B. Qriqoroviç`ə məktub, 12 yanvar 1888). Həmin günlərdə yazdığı digər məktublarda da bənzər sözlər söyləyir, məsələn: "uzun yazmağa vərdiş etmədiyimdən, tez-tez üslubdan, ahəngdən düşürəm, yoruluram, fikrimi sona çatdırmıram, kifayət qədər ciddi deyiləm... o mənə nəhəng, darıxdırıcı və həddindən artıq xüsusi görünür" (Ya. P. Polonski`yə məktub,18 yanvar 1888) və ya "hər səhifə kompakt alınır, kiçik hekayə kimi..." (Korolenko`ya məktub, 9 yanvar 1988). O, gah bu əsərinin yaxşı, bənzərsiz bir şey olduğunu deyir, gah da şübhələrə qapılırdı, nisbətən uzun əsər yazmaq cəhdi onu əməlli-başlı yormuşdu. M.V. Kiseleva`ya məktubunda "sümüklərimin iliyinə qədər yorulmuşam" deyir (3 fevral 1888), A.S. Lazarev-Qruzinskiy`ə məktubunda da bunu təkrar edir: "biabırçı dərəcədə yorulmuşam... bundan daha yaxşı edə bilmirəm..." (4 fevral 1888).

Çexov ona pərəstiş edən şair Alekseyev Pleşeev `ə yazdığı məktublarda eyni əsər ətrafında bənzər fikirlər söyləyir - "iri şey yazmaq xırda şeylə müqayisədə qat-qat çətindir" (19 yanvar 1888), "mən hələ uzun yazmağa alışmamışam, həm də tənbələm; kiçik işlər məni ərköyün edib" (23 yanvar 1888), "yorulmuşam, uzun yazmaq vərdişim olmadığından əzab çəkdim, gərginliklə yazıram və hiss edirəm ki, xeyli boş şey yazmışam (3 fevral 1888). Bu məktubunda, üstəlik əsərin ortasını, yəni, nisbətən uzun yerini yazmaqdan qorxduğunu, uzatmaq qorxusunu, bu anlaşılmaz ağrını dilə gətirir: "Yalnız başlanğıc və sonluqdan ibarət olan kiçik hekayələrə adət etdiyimdən, ortanı yazdığımı hiss edəndə darıxıram, sözü çeynəməyə, sözün çürüyünü çıxarmağa başlayıram". A. Tvardovski (1910-1971), Çexovun əksinə, bir sıra "başlanğıcsız" başlayan və "sonluqsuz" bitən hekayədən söhbət açırdı (Василий Теркин).

İri həcmli əsər, roman yazmaq istəyi Çexov`u tərk etmir, lakin, o, yaza bilmədiyini də dərk edirdi. "Şadam ki, 2-3 il əvvəl Qriqoroviç`ə qulaq asmadım və roman yazmadım!... Yetkinlik lazımdır - bu bir, ikincisi, şəxsi azadlıq hissi zəruridir..." (Suvorin`ə məktub, 7 yanvar 1889). Ertəsi gün eyni şəxsə yazdığı məktubda xəyala dalır: "qış gecələrində povest və romanlar yazmaq yaxşıdır, bunu edəcəm - ağıllananda". 1897-ci ildə "1500 misrada" adlı roman üzərində işləməyə başlamış (bu barədə məktublarında yazmış), 1899-cu ildə bu işdən yorulub əl çəkmişdi (7 yanvar 1899, Suvorin`ə məktub).

Tənqidlər və tərifləri

Çexov, hekayələrində müəllif münasibəti görünmədiyinə görə, tənqid edilirdi. Daha sonra bu üsul Çexov`un gücü, istedadı kimi qəbul edildi. Çexov onu tənqid edənlərin fikrinə geniş münasibət göstərmir, onların haqlı olmadığını düşünürdü: "Mənə de-yirlər ki, mənim hekayələrimdə etiraz elementi görünmür, onlarda simpatiya və antipatiya yoxdur. Məgər hekayənin başlanğıcından sonuna qədər mən yalana qarşı qəti etiraz etmirəmmi? Məgər bu istiqamət deyilmi?" (A.N. Pleşeev`ə məktub, 10 və ya 11 oktyabr 1888). O, mütləq liberal və ya konservator kimi görünmək fikrindən uzaq olduğunu bildirir (A.N. Pleşeev`ə məktub, 4 oktyabr 1888), hər cür adilikdən, xırdalıqlardan yazır, lakin, hadisəni bütün detalları ilə təsvir etmək istəmədiyini, oxucuya da yer saxladığını deyir: "Siz mənim obyektivliyimi xeyir və şərə etinasızlıq adlandırırsınız, məni ideal və ideyaların olmamasına görə danlayırsınız...Mən yazanda tamamilə oxucuya arxayın oluram, düşünürəm ki, hekayədə çatışmayan, əksik qalan subyektiv elementləri o özü əlavə edəcək" (A.S. Suvorin`ə məktubdan, 1 aprel 1890).

Qeyd edim ki, Guy de Maupassant (Mopassan, 1850-1893) da nikbin yazıçı deyildi və onu da öz qəhrəmanlarına münasibət bildirmədiyi və şəri, zülmü cəzalandırmadığı üçün möhkəm günahlandırırdılar.

Çexov`un üslubunu qızğın müdafiə edənlər də vardı: "O, insanları heç vaxt bəzəmir...Stilist kimi Çexov`a heç kim çata bilməz...Rus dilini, onun inkişafından danışsaq, Puşkin, Turgenev və Çexov yaratdılar" (A.M. Qorki, "Yarğanda" haqqında məqaləsindən). Qorki`nin fikrincə "həyatın xırdalıqlarının faciəsini Anton Çexov qədər heç kim belə aydın və incə anlamırdı", "onun istedadının dəhşətli gücü məhz onun özündən heç nə uydurmamasıdır... O, heç vaxt insanlara bəzək vurmur (Novoqorodskiy listok, № 29, 1900; bax – Çexov, cild 6, səh. 434).

Çexov`un böyüklüyü qəbul edilir, ancaq onun haqqında təriflərdə belə tənqidsiz, iynəsiz keçinilmirdi. 1888-ci ildə Çexov Elmlər Akademiyasının Puşkin mükafatına layiq görüldü. Bu təqdimat aşağıdakı sözlərlə ifadə edilmişdi: "Cənab Çexov`un hekayələri, yüksək ədəbi tənqidin tələblərini tam ödəməsə də, bizim çağdaş belletrist ədəbiyyatımızda görkəmli hadisəni təmsil edir".

Ehtiraslı yazı arzusu və üslub

"Eyni şeylər yazmaqdan bezmişəm. Şeytanlardan, müdhiş, vulkan kimi qadınlardan yazmaq istəyirəm, cadugərlərdən,..., amma, heyhat..." (E.M. Şavrova`ya məktub, 4 dekabr 1994); göründüyü kimi, Çexov`da "sadə, sən və mən kimi" insanlar mövzusundan kənara çıxmaq yanğısı varmış. Çexov "ciddi addım atmaq", iri həcmli bədii əsər-roman yazmaq istəyirdi, "5 povest, 2 roman süjetləri var başımda", "indiyə qədər yazdıqlarım yazmaq istədiklərimlə müqayisədə heç nədir" (Suvorin`ə məktub, 27 oktyabr 1888). Amma, yaza bilmədi... Bəzi tənqidçilərin fikrincə Çexov hər şeyi soyuq qanı ilə eyni cür yazırdı, onlar Çexov`u "ideyasız" sayırdılar (yəqin ki, "böyük" ideyanı, roman yazılmasına səbəb olacaq ideyanı nəzərdə tuturlarmış). Onun hekayə və pyeslərində qarşılıqlı sevgi qıtlığı nümayiş olunur, hisslərini boğanlar və həyatın darıxdırıcılığı təsvir edilir. Çexov "Darıxdırıcı tarix" hekayəsində "ümumi, ideyasız" həyatın mənasız olduğunu hiss edən professordan bəhs edir.

Charles Darwin öz həyat tarixçəsində (avtobioqrafiya) yazmışdı: "Əsl candan sevilə bilən heç olmazsa bir qəhrəmanı olmayan heç bir romanı, zənnimcə, birinci sinif saymaq olmaz - əgər bu qəhrəman yaxşı bir qadın olsa, bu daha da gözəldir". Çexov Darvin haqqında "Darvin`i oxuyuram. Necə də zəngin!. Onu dəhşətli dərəcədə sevirəm" demişdi (V.V. Bilibin`ə məktub, 11 mart 1886). Görəsən, sevimli Darvin`in yuxarıdakı sözlərindən Çexov`un xəbəri vardımı?!

Dram əsərlərində Çexov`un yaradıcı psixologiyası

Çexov dram əsərləri də yazdı. 1827-ci ildə əsası qoyulan Taqanroq teatrı onda böyük maraq yaratmışdı. Yada salmaq istərdim ki, müsəlman şərqinin ilk dramaturqu olan M.F. Axundzadə dram əsərlərini, bənzər şəkildə, 1844-cü ildə Tiflisdə yaradılan rus teatrının təsiri altında yazmışdı.

İri həcmli nəsr əvəzinə niyə pyes olmasın?! Pyes teatr vasitəsilə daha yaxşı tanına bilir, teatrda sınaqdan çıxıb ikinci həyat yaşaya bilir. Teatrda əlavə şərh var və o, müəllifin şərhləri ilə üst-üstə düşməyə də bilir; məsələn, Çexov`a görə rejissorlar onun komediyalarını drama çevirirlər. Teatrda hazırlanan tamaşa mətn müəllifi, musiqi müəllifi və quruluşçu rejissorun, rəssamın və əlbəttə, aktyorların birgə əməyi ilə üzə çıxır, tanınır, məşhurlaşa bilir. Yazar təkbaşına əsər yazır və oxucu onu təkbaşına oxuya bilir. Tamaşalar isə müxtəlif şərhlər, bəzəmələr vasitəsilə meydana çıxır. Məsələn, bəstəkar balet musiqisi yazır, bu musiqi öz-özlüyündə mücərrəd simfonik musiqidir, xoreoqraf-baletmeyster bu musiqini fiziki-harmonik hərəkətlə, rəqslərlə canladırır - özü bildiyi kimi. İki ayrı baletmeyster eyni balet musiqisini çox müxtəlif şəkildə canlandırır. Baletin şöhrətlənməsi həlledici dərəcədə baletmeysterin işindən asılıdır. Eynilə, eyni bədii əsər əsasında müxtəlif rejissorlar çox fərqli kinolar çəkirlər.

Yenə Çexov`un məktublarına müraciət edirəm. "Nəsə qəribə bir şey yazacam" (Suvorin`ə məktub, 5 may 1895), "dram sənətinin bütün qaydalarına zidd olan" (21 noyabr 1895) - Çexov bu halda da öz "qaydalara zidd" üslubuna sadiqdir. Bu "qəribə şey" Çexov`un komediya saydığı "Qağayı" idi. "Forte kimi başladım, pianissimo olaraq bitirdim" – dram əsərlərinin bütün qaydalarına zidd olaraq, povest alındı" (A.S. Suvorin`ə məktub, 21 noyabr 1895). Bu pyesdə də, digərlərində də obrazlar əvvəldə xoş əhvallı və ya xoşbəxt görünür, sonda hər şey korlanır, sonda hamı bədbəxtdir, heç kim öz istəyinə çata bilmir.



A. P. Çexov və Olqa Knipper

Çexov`un dörd pyesi məşhurlaşdı (*Qağayı, Vanya dayı, Üç bacı* və *Albalı bağı*), müxtəlif dillərə

çevrildi, teatrlarda oynanıldı, filmlərə mövzu oldu. Dramları haqqında tənqid tərifdən çox idi: "hər şey adidir", "hərəkət azdır", dağınıqdır", "artıq məişət təfərrüatları daxil edir", "fikir aydın deyil", "ictimai məna yoxdur", "mənasız dialoqlar", intriqasız", "məqsədsiz", "obrazları həvəsaiz"...Çexov`u yüksək qiymətləndirən Lev Tolstoy "Üç bacı" üçün "Hamı dram? Pyes yerində sayır", "bir şeyə dəymməz", "axıra qədər oxuya bilmədim" demişdi (А.П.Чехов в воспоминаниях современников. Издательство "Художественной литературы", Москва, 1960. См. Там: И. Альтшуллер. О Чехове - Из воспоминаний, стр. 595 - 596). Əsərləri tərifləyənlər də vardı, Çexov`un sağlığında pyeslər böyük səhnə həyatına başladılar (MXAT öz üslubunu məhz Çexov`un pyesləri ilə təsdiq etdi və məşhurlaşdı), *Çexov`un pyesləri yeni teatr yaratdı* fikri yayıldı, jurnallar və teatrlar Çexov`u rahat buraxmır, *pyesini bizə göndər* deyə xahiş edirdilər.

Çexov`un dram əsərləri də, hekayələrində olduğu kimi, həvəssiz, mübarizəsiz, gücsüz obrazlarla doludur. Bəs niyə bu pyeslər məşhur oldu? Çexov doğrudan da ənənəvi teatr qayda-qanunlarını pozurdu - teatr effektləri və intriqası olmayan, güclü, ideyalı qəhrəmanları olmayan, komiklik, dram və faciənin qarışığı olan pyeslər yazırdı. Səhnə sadəliklə, göstərici effektlər əvəzinə saxtalıqdan uzaq həyatilikllə dolur. Səhnədə qəhrəmanlar yoxdur, böhran içində olan, yaşamaq qabiliyyəti zəif passiv insanlar var. Göstərici əyləncə əvəzinə daxili psixoloji vəziyyətin ahəngi, hakimliyi mövcuddur. Qəhrəmanlar yoxdur, amma birləşdirici ümumi əhval, ruh halı var, Çexov lirikasının dərinliyi, sadəliyin psixoloji dərinliyi var. Çexov`un pyesləri dərıxmanın və məzmunu aydın olmayan kədərin poeziyasıdır, bu pyeslərdə arzu və gerçəklik arasında görünməz sədlər var. Tamaşaçılar ağlayır, Çexov isə komediya yazdığını israr edirdi.

Çexov`da hər şey qısa olduğu kimi, nəsr lirikası da qısadır. Kədərli pessimizm və inamsızlığın ustalıqla işlənmiş obrazları tamaşaçının marağını artır. "Çexov mənə qəhrəmansız pyes yazma planını bildirdi" (1902-ci il); sonra məlum olduğu kimi, bu, sonuncu pyesi - "Albalı bağı" haqqındadır (A.L. Vişnevskiy. Kloçki vospominaniy, L., 1928, стр. 101). Qəhrəmansız bu əsərlərdə qəhrəmana çevrilən rəmzlər və mühit var, ölmüş qağayı (*Qağayı*), gecə tufanı (*Vanya dayı*), şəhər yanğını (*Üç bacı*) var. Bənzər rəmzlərə hekayələrində də rast gəlinir, məsələn, "Tələbə"də axşam tonqalı.

Çexov pyesləri də çətinliklə yazdığını deyir, onların uğur qazanacağına şübhə edir, dəfələrlə daha pyes yazmayacağını bəyan edirdi. "Pyes roman kimi mürəkkəbdir" (V.F. Komissarjevskaya`ya məktub, 13 noyabr 1900). Xəstə olduğu son illərdə yenidən hekayəyə qayıtmaq istəyirdi, "pyes yaza bilmirəm, məni indi ən adi nəsr cəzb edir (O.L. Knipper`ə məktub, 14 sentyabr 1902). Nemiroviç-Dançenko bunun əksini doğru sayırdı: "pyeslərin naminə belletristikanı buraxır" (Nemiroviç-Dançenko`nun məktubu, 2 aprel 1901). Çexov`dan təkidlə yeni pyes yazmağı xahiş edirdilər, o cümlədən, arvadı - məşhur aktrisa O.L. Knipper. Çexov`un dramlarını yüksək qiymətləndirən və səhnələşdirilməsində böyük rol oynayan Stanislavskiy və Nemiroviç-Dançenko bu dramlardakı lirik "sualtı axınları" görmüş və tutmuşdular.

Çexov`un bədii harmoniyası

Çexov bədii ədəbiyyatın qaydalarına meydan oxumuş (mövcud qaydaları pozmuş, yeni qayda yaratmış?!), adiliyi zirvəyə qaldırmış, soyuq münasibətlərin, ümidsizliyin və çarəsizliyin cansıxıcı simfoniyasını yaratmış və bu ahənglə maraq oyatmışdı. Yaradıcılığında açıq söylənən ideyalara, tümurmiləşmələrə yer vermirdi (qısa, ötəri ifadələri saymasaq). İdeya və idealları yaradıcılığa buxov sayırdı. Qəhrəmanının xoş həyatı və ideyaları olsa-olsa ancaq gəncliyində olub, indi həyat pisləşib, yeni həyat uğrunda mübarizə edən yoxdur, "məndə vicdana görə hərəkət etmək kişiliyi çatmır" ("Kədərli tarix"). Çexov heç nə sübut etmir, çox həyati, bər-bəzəksiz mühit yaradır, onun çoxsəsli musiqisində ayrı-ayrı ifaçılar deyil, orkestr eşidilir. Müasirləri Çexov`u heç də elliklə alqışlamırdılar, onu anlaşılmaz sayanlar az deyildi; Çexov`un əsərləri birdən-birə deyil, addım-addım anlaşılır və qəbul edilirdi...

Çexov öz "Qağayı" pyesində Trenoqin`in dili ilə sanki öz yazıçı kredosunu yada salır (ümumiyyətlə, başını aşağı salıb yazmaqla məşğul olan və şöhrətini hiss etməyən Trenoqin, sanki, Çexov`un öz obrazıdır): "iş köhnə və ya yeni formalarda deyil, insanın heç bir forma düşünmədən yazmasındadır, ona görə yazır ki, bu onun qəlbindən süzülüb axır" (4-cü səhnə).

Çexov`un əsərlərində lirik əhval, xoş fikir və arzular da görünür (*İt gəzdirən xanım, Gəlin, Tələbə, Baş bağbanın hekayəsi, Yarğanda, Qağayı,...*). Lakin lirik, poetik olan bir anlığa görünür, ani çırpıntının, arzu və istəyin ardınca düşgünlük, amansız gerçəkliyin ümidsizliyi gəlir, hər kiçik qığılcımdan sonra ətrafı qaranlıq bürüyür. Bir anlığa doğulan ümid qığılcımı gerçəkliyin məngənəsində sıxılır, can verir. Xoş minor ton və onu boğan kədərli major - budur Çexov harmoniyasının canı. Çexov realizmi onun obrazlarının dəyişməsinə, daxili həyəcanın canlanmasına, həddini aşmasına, yeni, daha gözəl həyat ümidinin yaranmasına

imkan vermir. Çexov`un qəhrəmanları ən yaxşı halda "yaxşı da olacaq, pis də olacaq" deyə bilir ("Yarğan"-da).

İdeyaları və üslubu Çexov`u hekayəyə doğru aparırdı. Dildə dəqiq və qənaətcil, təmkinli idi, əhvalatı və hissləri qısa zamanda və məhdud məkanda ifadə edə bilirdi. Çexov çap olunmuş əsərlərini kitab kimi nəşrə hazırlayanda adətən onları ixtisar edir, "artıq yerlər"i və "artıq ifadələr"i mətndən çıxarırdı (bunu başqalarına da, məsələn, Korolenko`ya tövsiyə edirdi), onun əlavələri isə, əsasən, senzuranın kəsib çıxardığı yerləri mətndə bərpa etməkdən ibarət olurdu.

İt gəzdirən xanım və *İonıç* mikro-roman tipli hekayələrdir. "İonıç"da insanın alçalması, cırlaşması, tənəzzülü göstərilir. Onun bəzi hekayələri, sanki, sıxılmış roman, O. Pamuk`un bəzi ifrat dərəcədə detallı romanları isə sanki uzadılmış hekayə təsiri bağışlayır. Çexov`da sosiallaşdırma yoxdur və ya çox zəifdir. Mizah hekayə ustası olan Aziz Nesin`də (1915-1995) isə tərsinə - məqsəd sosiallaşdırmadır. Aziz Nesin`in romanları da var, amma onlar sanki bir süjet ətrafında birləşmiş hekayələr küllisidir.

Cəlil Məmmədquluzadə hekayə yazarı kimi

Hekayəyə üstünlük verən Azərbaycan yazarları arasında (və, ümumiyyətlə, Azərbaycan ədəbiyyatında) Cəlil Məmmədquluzadə (1866-1932) xüsusi yer tutur. Yaradıcılığa hekayə və sosial həyata aid kiçik məqalələrlə başladı.1904-də məşhur "Poçt qutusu" hekayəsini yazdı. 1906-cı ildən parlaq illustrasiyalı milli "Molla Nəsrəddin" mizah dərgisini çıxarmağa başladı (1906-1917, Tiflis; 1921, Təbriz; 1922-1931, Bakı) və "Molla Nəsrəddin"çi ədəbi məktəbin banisi oldu. Tək vətəndə deyil, bütün dünyada özünə yer edən sosial ədalətsizlik, həmçinin cahillik (sonuncu daha çox vətəndə) haqqında bütün yazıları, felyetonları ilə ədəbiyyatda və ictimai həyatda əvəzolunmaz yer tutdu. Sözə qənaət ona xas idi. O, (Çexov kimi) dram əsərləri də yazdı (o cümlədən, "Ölülər", "Dəli yığıncağı", "Anamın kitabı", "Kamança").

Lakin C. Məmmədquluzadə öz "kiçik adamları" ilə, yazı üslubu ilə Çexov`dan çox fərqlənirdi. O, maarifçi idi, münasibət bildirirdi, sosial bəlaları felyeton və hekayə (və dram) mövzusuna çevirir, nöqtə və sual işarəsi qoymağı vacib bilir və bacarırdı. Çexov`da nəsri yönəldən oçerkçilik və tərəfsizlik isə, C. Məmmədquluzadə`də konkret hədəfləri nişan alan felyetonçuluqdur. C. Məmmədquluzadə açıq xitab edir: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım". O, sözçü və yalançı qələm sahiblərini və vətənpərəstliyi də tənqid edir, "bunlar mənim qulağıma girməz, mənə əməl lazımdır, əməl, əməl!".

Bəs C. Məmmədquluzadə niyə roman yazmadı? O, buna qadir idi, "Danabaş kəndinin əhvalatları" povesti və əsərlərindəki polifonik üslub bunu deyir.



Cəlil Məmmədquluzadə

Sadəcə, o dövrün Azərbaycan yazıçıları üçün Şərq poeziya qaynağı olmuş, Rus və Avropa ədəbiyyatı dram və hekayə sahəsində təcrübə qazanmağa kömək etmiş, M.F. Axundzadə`dən, 1850-ci illərdən başlayaraq dram yazmaq ənənə şəkli almış, hekayə yazmaq dövrü başlamış, böyük roman dövrü isə yetişməmişdi.

Yazarın yaradıcı psixologiyası

Özünü ifadə, problemə münasibət, maarifçilik – yaradıcılığın bu üç tərzi bir tərəfdən bir-biri ilə bağlıdır, digər yandan isə biri aparıcı olmaqla digərləri kölgədə qala bilər. Çexov özünü ifadə zamanı nə əsərin məzmununa uyğun problemə münasibət bildirir, nə də hər hansı nəsihətçiliyi yaxın qoyur (estetik həssaslığına baxmayaraq). O, tam içinə qapanır, olanı yazır, yazığı gəlmədən, hirslənmədən, müsbət qəhrəman yaratmağa çalışmadan - budur onun orijinallığı...Həyat sadədir, bəzək və qəhrəmanlıq əksər hallarda uydurmadır... Əgər yaradıcılıq oyun isə, bu oyunu uzatmaq da ola bilər (həzzi uzatmaq), tez bitirmək istəyi də yarana bilər. Şahmatda ehtiraslı blitz oynayanlar uzun partiyalara həvəs göstərməyə bilərlər, qı-

sa bir vaxtda partiyanı bitirib, oradakı həyəcanı dadıb yeni partiya başlamaq, yeni həyəcana doğru tələsmək maraqlıdır. Digər yandan isə, yaradıcılıq üçün tək qalmaq, tənhalıq, xəlvətə çəkilmək zəruri olur; bəziləri bu xəlvətdən üzə çıxa bilmir və ya geri dönmək istəmirlər.

Çexov`a görə həyatdakı problemlərin birqiymətli həlli yoxdur, suallar var, suallara fərqli cavablar var, vacib olan bu problemləri qoymaqdır, bu suallara diqqət verməkdir, problemin sadə həlli yoxdur. Bu baxımdan Çexov *ayrılan* və ya *dağılan* (divergent) yaradıcı düşüncə tərzinə malikdir - belə demək mümkündür (*birləşən* və ya *yığılan* düşüncə tərzi isə qarşıda duran problemin tək bir həlli olduğunu deyir). Freud`in şəxsiyyət psixilogiyası baxımından Çexov öz yaradıcılığında Superego`ya gözədəyən yer ayırmırdı (xeyir-şər və mənəviyyata münasibət bildirmirdi).

Çexov özündə konsentrasiya olunan, qapalı, ehtiyatlı, sakit və barışçıl, hisslərini nəzarətdə saxlayan, qayğıkeş, passiv, sosiallaşmadan qaçan (hətta öz arvadı ilə tez-tez üzə gəlmək istəməyən - *arvadım mənim əhatəmdə olmasın*), təmkinli, böyük həzzdən, qəhqəhədən uzaq insan olub. O, hekayə yazarı kimi adi bir fikri qeyri-adi dərəcədə sadə və anlaşılmaz dərinlikdə hekayəyə çevirir. Çexov`u, sanki, *introvert* olmaqla stabilə yaxın şəxsiyyət kimi xarakterizə etmək olar. O, kütlədən kənarda, fəallıq göstərmədən müşahidə edən, daxili hisslərinə sığınan yazar idi.

Yaradıcı şəxsiyyətin xarakterik cəhətləri onun yaradıcılığına, üslubuna təsir edir. Ətraf mühitlə dil tapa bilməyən, hər şeydən şikayət edən türk hekayə ustası Sait Faik (1906-1954) Çexov`dan fərqli olaraq qovğaçı və üsyankar idi.

İntrovertlər bəzən fəallıq göstərib ekstrovertlər rolunda hərəkət edə bilirlər. Çexov sosial mühitdə xoşbəxt ola bilməsə də, fəal etiraz edən deyildi, lakin bir dəfə ciddi etiraz etdi. Maksim Qorkinin Rusiya İmperator Akademiyasına fəxri üzv seçilməsi çar 2-ci Nikolayın acığına gəlmiş, akademiyanın adı ilə Qorki üzvlükdən çıxarılmışdı (1902). Buna etiraz əlaməti olaraq Çexov yazar həmkarı V.Q. Korolenko ilə birlikdə bu Akademiyaya fəxri üzvlükdən imtina etmiş, bu barədə çara ünvanladığı məktubda "vicdanım bu hadisə ilə barışmır" deyə etirazını özünəməxsus şəkildə siyasətlə deyil, ədalət və vicdanla bağlamışdı ("onu seçilməsi münasibətilə təbrik etmişəm, sonra isə guya çıxarılmasına səs vermişəm"). Çexov`un ədalətsizlik və yalana düşmən olması məktublarında, həmçinin onun haqqında yazılan xatirələrdə çox açıq şəkildə görünür.

Yaradıcılıq prosesi necə baş verir - bu barədə qədim zamanlardan günümüzə qədər filosoflar və elm adamları maraqlı fikirlər söyləmişlər. Kəşfin necə edildiyini kəşf edənlər özləri də əksər hallarda tam və aydın izah edə bilmirlər. Onlar müəyyən maraqlı hipotezlər irəli sürməklə kifayətlənmişlər. Kəşfin, yaradıcı gücün ilahidən, muzalardan, yəni fövqəl xarici qüvvələrdən gəldiyini söyləmək adət olmuşdur. Yaradıcı şəxsin ifadə tərzi, insanları təəccübləndirməsi, heyran etməsi ona şöhrət gətirir. Çağdaş psixologiya və neyroelm yaradıcı prosesi öyrənməyə cəhd edir..

Tövsiyə olunan ədəbiyyat

А.П.Чехов. Собрание сочинений в восьми томах. Издательство «Правда», Москва, 1970.

Полное Собрание Сочинений Антона Павловича Чехова в 30-ти томах (1-15 bədii əsərlər, 16-17 – məqalələr, rəylər, gündəlik və qeydlər, 19-30-yazdığı məktublar: 4494). Москва: Издательство «Наука», 1983.

Письма Чехова за 1875-1904 года. *www.anton-chehov.info/pisma-za-1875-1904-goda.html*

Chekhov, Anton, Letters of Anton Chekhov to His Family and Friends with Biographical Sketch, translated by Constance Garnett, Macmillan, 1920. *http://www.gutenberg.org/ebooks/6408*

Dear Writer, Dear Actress: The Love Letters of Anton Chekhov And Olga Knipper (translated and edited by Jean Benedetti). Methuen Publishing Ltd, 2007.

Donald Rayfield. Anton Chekhov: A Life. HarperCollins, 1997; New York: Henry Holt, 1998.

Henri Troyat. Tchekhov. Dutton, 1986 (Труайя Анри. Антон Чехов. Изд-во «Эксмо», М., 2004).

Maurice R. Berube. Why I hate Chekhov? The Chronicle of Higher Education, 1 March 2002.

Hans Eysenck. Dimensions of Personality. London, K. Paul Trench Trubner, 1947.

Hans Eysenck. The Biological Basis of Personality. Spriengfield, Thomas, 1967.

Bryan Walsh. The Upside of Being an Introvert (and Why Extroverts Are Overrated). Time, February 6, 2012.

Susan Cain. Quiet: The Power of Introverts in a World That Can`t Stop Talking. Crown Publishers (or Viking/Penguin), 2012.



"XƏZƏRŞÜNASLIQ" FƏNNİ TƏLƏBƏLƏRİ ÜÇÜN EKSKURSİYA

STUDENTS ON EXCURSION WITHIN SUBJECT "CASPIAN STUDIES"

Aprelin 7-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamenti müəllimlərinin təşəbbüsü ilə "Xəzərşünaslıq" fənni tələbələri üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamenti Neftçala ixtisaslaşdırılmış mənsəb hidrometeorologiya müəssisəsinə ekskursiya təşkil olundu.

Çöl tədqiqatı zamanı tələbələr gəmi ilə Kür çayının mənsəbinə qədər üzdülər, eyni zamanda, Xəzər dənizinin meteorologiyası, səviyyə rejimi və Kür çayının mənsəbi haqqında praktiki biliklər aldılar.

On April 7, on initiatives of the instructors of the Department of Geography and the Environment, the students went on an excursion, within the subject of "Caspian Studies", to Neftchala Specialized Hydrometeorological Institute, National Hydrometeorology Department of the Ministry of Ecology and Natural Resources.

During the field study, the students sailed to the mouth of the Kur River, and gained practical knowledge on meteorology and the level regime of the Caspian Sea as well as the mouth of the Kur River.





"XƏZƏR"-İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ XARİCDƏ ÇAP OLUNUB

KHAZAR UNIVERSITY STAFF MEMBERS PUBLISH ARTICLES IN THE ABROAD

***

2018-ci il martın 30-da Türkiyənin aparıcı qəzetlərindən olan "Türkiyə" qəzetində **Tarix və arxeologiya departamentinin müəllimi Dr. Telman Nüsrətoğlunun** Rusiya ətrafında yaranan geosiyasi şəraiti şərh edən "Kara bulutlar Rusya semalarında" adlı məqaləsi dərc olunmuşdur.

Dr. Telman Nusratoghlu's, instructor of the Department of History and Archeology, article "Black clouds in the Russian skies", which deals with geopolitical issues around Russia, was published in the newspaper of "Türkiye", one of the leading newspapers of Turkey, March 30, 2018.

***

Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimi Kənan Şıxəliyevin "Transesterification of biodiesel byproduct glycerol and dimethyl carbonate over porous biochar derived from pyrolysis of fishery waste" ("Balıq tullantılarından piroliz üsulu ilə alınmış katalizatorun, biodizel istehsalında yan məhsul olan gliserin və dimetil karbonat arasında gedən transesterifikasiya reaksiyasında istifadəsi") adlı elmi məqaləsi İngiltərənin "Energy Conversion and Management" (8 aprel 2018, V.165, pp.794-800) jurnalında nəşr olunmuşdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

https://www.sciencedirect.com/science/article/pii/S0196890418303303

A research paper "Transesterification of biodiesel byproduct glycerol and dimethyl carbonate over porous biochar derived from pyrolysis of fishery waste" by **Kenan Shikhaliyev, lecturer of the School of Engineering and Applied Sciences,** was published in the UK "Energy Conversion and Management" (April 8, 2018, V.165, pp.794-800) journal.

The link to the paper is as follows:

https://www.sciencedirect.com/science/article/pii/S0196890418303303

***

Mühəndislik və tətbiqi elmlər fakültəsinin Mexanika mühəndisliyi departamentinin tədqiqatçısı Dr. Mehdi Kiyasatfarın *Particle manipulation via integration of electroosmotic flow of power-law fluids with standing surface acoustic waves (SSAW)* ("Sabit səth akustik dalğaları ilə mayelərin güc qanununun elektroozmotik axına inteqrasiyası vasitəsilə hissəcik manipulyasiyası") adlı məqaləsi Niderlandın beynəlxalq "*Wave Motion*" jurnalında (aprel, 2018-ci il, c.80, s. 20-36) çapdan çıxmışdır.

Məqaləni bu linklər vasitəsilə oxumaq olar:

https://www.sciencedirect.com/science/article/pii/S0165212518301239

https://www.journals.elsevier.com/wave-motion

A research paper *"Particle manipulation via integration of electroosmotic flow of power-law fluids with standing surface acoustic waves (SSAW)"* by **Dr. Mehdi Kiyasatfar, a researcher of Mechanical Engineering Department of the School of Engineering and Applied Sciences,** was published in the International Journal of *Wave Motion* ((Netherlands, April, 2018, V.80, pp. 20-36).).

The article is can be read through the following links:

https://www.sciencedirect.com/science/article/pii/S0165212518301239

https://www.journals.elsevier.com/wave-motion

***



FHN - İN YANĞINA QARŞI MÜBARİZƏ İDARƏSİNİN ƏMƏKDAŞLARI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜLƏR

MINISTRY OF EMERGENCY STAFF MEMBERS MEET STUDENTS

Aprelin 16-da Xəzər Universitetində FHN-in Yanğına qarşı Mübarizə İdarəsi əməkdaşlarının iştirakı ilə seminar keçirildi. Seminarı universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açaraq, təhlükəsizlik tədbirləri haqqında məlumat verdi və qonaqları seminar iştirakçılarına təqdim etdi.

FHN-in Bakı Regional Mərkəzinin baş zabiti kapitan Ramil Səfərov və FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin 3-cü Ərazi Dövlət Yanğın Nəzarəti İdarəsinin böyük inspektoru daxili xidmət mayoru Xanlar Mahmudov təhlükəsizlik tədbirləri haqqında geniş məlumat verdilər.

Sonra tələbələri maraqlandıran suallar cavablandırıldı.

On April 16, staff members of Fire Fighting Unit, Ministry of Emergency, held a workshop at Khazar University. Alovsat Amirbeyli, Director for Public Relations and Media, opened the workshop talking about safety and introduced guests to workshop participants.

Captain Ramil Safarov, chief officer of the Baku Regional Center of the Ministry of Emergency Situations, and internal service major Khanlar Mahmudov, senior inspector of 3rd State Territorial Fire Control Office of State Fire Control Service, gave wide information on safety measures, and answered questions of the students.

Azərbaycan Respublikası
Gənclər Təşkilatları
Milli Şurası

XƏZƏR UNİVERSİTETİ İLƏ GƏNCLƏR TƏŞKİLATLARI MİLLİ ŞURASI ARASINDA MÜQAVİLƏ İMZALANDI

KHAZAR UNIVERSITY SIGNS A CONTRACT WITH NATIONAL ASSEMBLY OF YOUTH ORGANIZATIONS

Xəzər Universiteti
1991
BAKI
KHAZAR UNIVERSITY

Martın 19-da Xəzər Universitetinin Karyera Mərkəzinin təşəbbüsü ilə universitetlə Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası arasında tələbələrin təcrübə keçməsinə dair müqavilə imzalamışdır. Müqaviləyə əsasən Xəzər Universitetinin tələbələri Milli Şuranın katibliyində təcrübə keçəcəklər. Onlar müxtəlif departamentlərdə fəaliyyət göstərərək, gələcək karyeraları üçün vacib olan bilik və bacarıqlara yiyələnəcəklər.

Müqavilə imzalanarkən nəzərə çatdırılmışdır ki, Azərbaycanın ilk özəl ali təhsil müəssisəsi olan Xəzər Universiteti dünya, Avrasiya və gənc universitetlərin *QS World University Rankings* beynəlxalq təşkilatı tərəfindən müəyyənləşdirilən reytinq cədvəllərində daim yuxarı yerləri, Azərbaycan üzrə isə birinci yeri tutur. Universitetin təhsil profilinə bakalavriat və magistratura ilə yanaşı, doktorantura proqramları və Azərbaycanda ən geniş MBA proqramı daxildir. Universitet dünyanın bir sıra nüfuzlu universitetləri ilə, aparıcı yerli və beynəlxalq şirkətlərlə səmərəli əlaqələr qurmuşdur.

Universitetdə humanitar və sosial elmlər, mühəndislik və tətbiqi elmlər, iqtisadiyyat, menecment və biznesin idarə olunması kimi müxtəlif ixtisaslar üzrə hazırlanan kadrlar dövlət müəssisələrində, özəl yerli və xarici şirkətlərdə çalışır, rəhbər vəzifələr tuturlar.

Qeyd edək ki, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası 1995-ci ildən fəaliyyət göstərir. Təşkilatın məqsədi gənclərin bilik və bacarıqlarının Azərbaycan dövlət müstəqilliyinin möhkəmlənməsinə, beynəlxalq aləmdə layiqli yer tutmasına, demokratik quruculuq işlərinə yönəltməkdir. 1997-ci ildən Avropa Gənclər Forumu, Türk Dünyası Gənclər Birliyinin tam hüquqlu üzvü, 2002-ci ildən BMT-nin İqtisadi və Sosial Şurasının məşvərətçi statuslu üzvü, İslam Konfransı Təşkilatının Gənclər Forumunun həmtəsisçisi və tamhüquqlu üzvü, "Böyük İpək Yolu" beynəlxalq gənclər təşkilatının həmtəsisçisi, 2014-cü ildən Dünya Gənclər Assambleyasının tamhüquqlu üzvüdür.

Əlavə məlumatı bu link vasitəsilə əldə etmək olar:

http://www.youthportal.az/az/news/detail.php?ID=125737

On March 19, on an initiative of Khazar University Career Center, Khazar University signed a contract with National Assembly of Youth Organizations on work experience program for students. According to the contract, Khazar University students will have work experience at the Secretary of National Assembly working at various departments to gain necessary knowledge and skills for a future career.

While signing the contract, it was mentioned that, according to QS World University Rankings, Khazar University, the first private university of Azerbaijan, is a high-ranking university in the world, and top university in Azerbaijan. Education profile of the University involves Bachelor's, Master's and PhD programs as well as the biggest MBA program in Azerbaijan. Khazar University has productive relations with prestigious universities of the world, and leading international and local companies.

Graduates of Khazar University, who studied in various programs such as social sciences, engineering and applied sciences, economy, management and business, etc., are currently working in leading positions in local and international companies.

National Assembly of Youth Organizations of the Republic of Azerbaijan was established in 1995. The objective of the organization is to use the potential of the youth to strengthen the independence of, and democracy in Azerbaijan, and help our country hold a decent place in the international arena. National Assembly of Youth Organizations became a member of European Youth Forum and Turkish World Youth Union in 1997. Moreover, the Organisation became a member with consultative status at United Nations Economic and Social Council, co-founded and became a full member of the Islamic Conference Youth Forum, and co-founded the Great Silk Way International Youth Union in 2002, and is a full member of World Assembly of Youth.

Link for further information:

http://www.youthportal.az/az/news/detail.php?ID=125737

TEDxKHAZARUNIVERSITY LİSENZİYASI YENİLƏNDİ

TEDxKHAZARUNIVERSITY LICENSE RENEWED

Xəzər Universitetinin Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov universitetin əməkdaşları Ülkər Bayramova və Turan Cəfərova ilə birgə Xəzər Universitetində dünya brendi olan TEDx-in növbəti tədbirinin keçirilməsi üçün lisenziya əldə etdilər.

Qeyd edək ki, bu lisenziya üçün yazışmalar 4 ay idi ki, davam edirdi. Lisenziya TEDx məruzələrinin ideyalarının təqdim olunması və bu ideyaların qlobal və lokal faydalar yaratması fikrini müdafiə etməklə əldə olunur. Bununla yanaşı, TEDx lisenziyasının şərtlərinin də yerində olması lisenziyanın verilməsi üçün əsas amillərdən sayılır. TEDx tədbiri 2018-ci ilin iyununa planlaşdırılır.

Goshgar Maharramov, Coordinator of Department of Education, Khazar University, Ulkar Bayramova and Turan Jafarova, staff members of the University, have received the license to organize next events of TEDx, world brand.

Staff members negotiated for this license for 4 months. TEDx license is received by submitting ideas for TEDx talks as well as argumentation for local and global benefits of these ideas. Moreover, complying with the terms of TEDx license is one of the important criteria to be granted with the license. TEDx talks are planned to be held in June, 2018.

XƏZƏR UNİVERSİTETİ MÜƏLLİMİNİN TƏŞƏBBÜSÜ İLƏ TƏDBİR KEÇİRİLDİ

Martın 22-də yenicə yaradılmış Cəlilabad Poeziya klubu Beynəlxalq Poeziya günü münasibətilə Novruz bayramı günlərində Azərbaycan Yazıçılar Birliyi (AYB) Lənkəran filialının qonağı oldu. Tədbir iştirakçılarını AYB Lənkəran filialının təmsilçisi Ağamir Cavad salamladı. Sonra "Bu yaz bir başqa yazdır..." devizi altında keçirilən görüşün ideya müəllifi, Xəzər Universitetinin müəllimi Qardaşxan Əzizxanlı tədbirin məqsədi barədə danışdı.

Cəlilabad Poeziya klubunun sədri istedadlı şair Əlizadə Nuri, mətbuat katibi filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlı, poeziya məsələləri üzrə katib Əlirza Həsrət, ev sahiblərindən yazıçı Cəfər Cəfərli, şair İslam Rzayev, həmçinin, tədbirə qatılmış tanınmış şairlər Balayar Sadiq, riyaziyyat üzrə fəlsəfə doktoru Əlişirin Şükürlü və başqaları çıxış edərək, poeziyanın nəzəri məsələlərinə toxundular, yeni şeirlərini oxudular.

Tədbirin sonunda C.Cabbarlı adına Lənkəran musiqi məktəbinin müəllimləri - tarzən Əbülfəz Əhmədovun müşaiyətilə xanəndə İmanverdi Ağayevin ifasında muğam və xalq mahnıları səsləndi.

A CEREMONY IS HELD ON THE INITIATIVE OF A KHAZAR UNIVERSITY S TAFF MEMBER

Representatives of Jalilabad Poetry Club visited Lankaran office of Union of Azerbaijani Writers (UAW) on the occasion of International Poetry Day on March 22, 2018. Aghamir Javad, a representative of Lankaran office, UAW, greeted participants at the ceremony. Then Gardashkhan Azizkhanli, a lecturer at Khazar University, and the initiator of the idea "It is exceptional spring…", talked about the aim of the ceremony.

Talented poet Alizadeh Nuri, chairman of Jalilabad Poetry Club; Bilal Alarli, PhD in Philology and press secretary; Alirza Hasrat, Secretary on poetic issues; as well as the hosts - Gafar Jafarov, writer, Islam Rzayev, poet, and other participants - Bayalar Sadig, poet, and Alishir Shukurov, poet, talked about theoretical issues of poetry, and recited their new poems.

Then instructors of Lankaran Music School named after J. Jabbarly, Abulfaz Ahmadov, tar player, and Imanverdi Aghayev, singer, performed pieces of music.

"XƏZƏR"İN ƏMƏKDAŞLARI ÖLKƏ VƏ XARİCİ SİMPOZİUMLARDA

KHAZAR UNIVERSITY STAFF AT LOCAL AND INTERNATIONAL SYMPOSIUMS

***

Martın 29 - 30-da **Azərbaycan dili və ədəbiyyatı departamentinin əməkdaşı, fəlsəfə doktoru Xatirə Yusifova** "Rus türkoloq Qordlevskinin 1920'li yıllarda Ankarada topladığı halk rivayetleri " adlı məqaləsi ilə Ankarada Etimesgut Qorqud Ata konqres və mədəniyyət mərkəzində keçirilən "Uluslararası tarihte Etimesgut" simpoziumunda iştirak etmişdir.

On March 29-30, **Khatira Yusifova, PhD in Philology and instructor of the Department of Azerbaijani Language and Literature,** participated in "Etimesgut in International History" symposium, held in Etimesgut Korkut Ata Congress and Culture Center, with her article "National stories collected by Gordlevsky, Russian Turkologist, in 1920s in Ankara".

***



Aprelin 1-də **Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova** "İncəsənətin sosial-psixoloji aspektlərinin incələnməsi" və **Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimova** (doktorant) "N.Çomski: dil və təfəkkür" adlı elmi məqalə ilə Bilim Evi İdarəetmə və Təşkilat Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Yohannesburq Universiteti və Svabi Universitetinin birgə təşkilatçılığı ilə keçirilən 2-ci Beynəlxalq Elm Konfransında iştirak etdilər.

Konfransda Azərbaycan Dillər Universitetinin, Landmark Universitetinin, Recep Tayyip Erdoğan Universitetinin, Lənkəran Dövlət Universitetinin, AMEA İqtisadiyyat İnstitutunun 150-yə yaxın magistr və doktorantları biznes və iqtisadiyyat, təhsil, mühəndislik, texnologiya, sağlamlıq, hüquq, regional araşdırmalar və digər mövzularda elmi məruzələrlə çıxış etdilər.

Sonda iştirakçılara konfransın məqalələr toplusu və sertifikat təqdim olundu.

On April 1, **Malak Karimova, Coordinator of the Department of Psychology and Director of Khazar Psychological Service Centre,** and **Valida Karimova, Vice-dean of the School of Humanities and Social Sciences,** participated in the 2nd International Science Conference, jointly organized by BilimEvi Management and Organization Committee, Azerbaijan National Academy of Sciences, Johannesburg University, and Swabi University, with articles "Investigation of the social and psychological aspects of art" and "N. Chomsky: Language and Thinking", respectively.

More than 150 gradnate and doctoral students from Azerbaijan University of Languages, Landmark University, Recep Tayyip Erdoğan University, Lankaran State University, and Institute of Economics of ANAS delivered reports on business and economics, education, engineering, technology, health, law, regional studies and other topics.

At the end of the conference, the participants were presented with certificates and printed collection proceedings.

***



Aprelin 6-dan 8-dək Türkiyə Cümhuriyyətinin Şanlıurfa şəhərində "Osmanlı sancağından Cümhuriyyət şəhərinə" adlı üçüncü beynəlxalq simpozium keçirildi. Simpoziumda **Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Ziyad Əmrahov** "Osmanlı imperiyasında hamidiyyə alayları Rusiya tarixşünaslığında" mövzusunda məruzə ilə çıxış etdi.

Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkiyə, Albaniya və Ruminiyadan olan tədqiqatçıların təmsil olunduğu beynəlxalq simpoziumda çıxış edən natiq, əsasən, Osmanlı İmperiyasında "hamidiyyə alayları" məsələsi ilə bağlı Rusiya tarixşünaslığının mövqeyini simpozium iştirakçılarının diqqətinə çatdırmaqla yanaşı, müqayisəli təhlillərə də yer verdi. Məruzədən sonra dinləyicilərin sualları cavablandırıldı və rusiyalı tədqiqatçıların iddia etdikləri "guya bu süvari alayları Osmanlı ermənilərinin fiziki cəhətdən məhv edilməsini əsas məsələ kimi qarşısına qoymuşdu" kimi fikirlər çoxsaylı mənbələr əsasında təkzib edildi və göstərildi ki, Berlin konqresinin qərarlarından sonra Şərqi Anadoluda özlərinə dövlət yaratmaq planlarının boşa çıxmasını görən ermənilər imperiyanın şərq əyalətlərində daxili münasibətləri kəskinləşdirmiş, terrorçu qruplaşmalar yaradaraq, imperiyanın digər xalqları, xüsusilə, kürdlər, çərkəzlər və türk əhalisini soyqırıma məruz qoymuşdular. Yaranmış vəziyyətin gərginliyini nəzərə alan Osmanlı hökuməti isə həm sərhədlərin təhlükəsizliyi, həm də daxili ictimai-siyasi vəziyyəti nəzarətdə saxlamaq üçün yeni islahatlar keçirmiş, daha sağlam ordu birləşmələri – hamidiyyə alayları yaratmışdır.

On April 6-8, the third international symposium entitled "From the Ottomans to the Republic of Turkey" was held in Shanliurfa, Turkey. At the symposium, **Ziyad Amrahov, PhD in History, instructor of the Department of History and Archeology**, delivered a report entitled "Hamidiyya regiments of Ottoman Empire in Russian historiography".

Researchers from Azerbaijan, Uzbekistan, Kazakhstan, Turkey, Albania and Romania participated in the symposium. Through comparative analysis, Ziyad Amrahov talked about the views in Russian historiography on "hamidiyye regiments" of Ottoman Empire. After the report, Ziyad Amrahov answered questions. Referring to various resources, Ziyad Amrahov refused the idea of Russian researchers who claimed that "the main aim of these cavalry regiments was to kill Ottoman Armenians". He also stressed that after the decisions of Berlin Congress, Armenians failed to establish a state and therefore they escalated the conflicts in Eastern Anatolia, and, by organizing terrorist groups, Armenians massacred other peoples of the Empire, especially Kurds, Circassians and Turks. Considering tension in the region the Ottoman leaders held reforms and created stronger military unions (hamidiyye regiments) in order to control internal social and political situation and secure the borders.

***





Aprelin 16-dan 18-dək Türkiyə Cümhuriyyətinin Qars şəhərində yerləşən Kafkas Universitetində Qafqaz Universitetləri Elm və Mədəniyyət Festivalı ("Kafkasya Üniversiteleri Bilim ve Kültür Şöleni") keçirildi. Festivalda Azərbaycan, Gürcüstan, Özbəkistan, Dağıstan universitetlərinin nümayəndələri iştirak edirdilər.

Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri dosent Vurğun Əyyub təmsil edərək, Xəzər Universitetinin Təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının təbrik məktubunu festival iştirakçılarına çatdırdı, universitetlər arasında əlaqələrin genişləndirilməsi istiqamətində təkliflərlə çıxış etdi.

Festivalın sonunda Kafkas Universiteti ilə Xəzər Universiteti arasında əməkdaşlıq müqavilələri imzalandı.

On April 16-18, Science and Culture Festival of Caucasus Universities was held in Kafkaz University, Kars city, Turkey. Staff members of universities from Azerbaijan, Georgia, Uzbekistan and Dagestan joined the festival.

Vurghun Eyyub, Head of the Department of Azerbaijani Language and Literature, represented Khazar University at the festival. He delivered a congratulatory letter by Prof. Hamlet Isakhanli, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, to festival participants, and searched for opportunities to widen collaboration with other universities.

He succeeded in signing a collaboration agreement between Khazar University and Kafkaz University.

***



Aprelin 17-dən 20-dək **Kitabxana-İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli** Antalyada keçirilən ANKOSLink-2018 konfransında iştirak etdi. ANKOS - universitet kitabxanalarının e-resurslara rahat girişini təmin edən Kitabxana-İnformasiya Konsorsiumudur.

Konfransda 20 ölkədən 500-dən artıq nümayəndə iştirak edirdi. ANKOSLink builki mövzu başlığı "Araşdırmaya açılan qapı – kitabxanalar" idi. Bu konfransın məqsədi universitetlərin bir-birləri ilə getdikcə daha böyük rəqabətə girdikləri bir zamanda araşdırmaçılar üçün kitabxanaçıların üstələyə bildiyi rolların müzakirəsi idi.

Konfransda müxtəlif ölkələrin kitabxana nümayəndələri, o cümlədən A. Misgərli fikir mübadiləsi etdilər. Kitabxana sahəsində hazırda aktual olan mövzulara toxunuldu. Universitet kitabxanalarının dəyişən rolları, XXI əsrdə kitabxanaların öhdəlikləri, qarşıda duran problemləri müzakirə olundu.

Sonda Azərbaycan kitabxanaları ilə daha sıx əməkdaşlığın qurulması məqsədilə toplantı keçirildi.

On April 17-20, 2018, **Aytaj Misgarly, Director of Library and Information Center,** participated in ANKOSLink - 2018 conference held in Antalya. ANKOS is a Library and Information Consortium providing University libraries with e-resources.

More than 500 participants from 20 countries took part in the conference. The topic of the conference for this year was "Library – a door to research". The aim of the conference was to discuss the importance of the libraries for researches during intense competition among universities. Librarians from various countries exchanged views throughout the conference and touched key topics regarding librarians. Moreover, participants discussed changing roles of academic libraries as well as commitments and challenges of libraries in XXI century.

At the end of the conference the participants held a meeting to discuss opportunities to build relations with libraries of Azerbaijan.

***

"XƏZƏR"İN ƏCNƏBİ TƏLƏBƏSİ TƏQDİM EDİR




Universitetin Mühəndislik və tətbiqi elmlər fakültəsinin İraqdan olan ikinci kurs tələbəsi Əli Musa Abdulkərim (kompüter mühəndisliyi ixtisası) həvəskar fotoqrafdır. Əli Bakıda və İraqda çəkdiyi fotoları təqdim edir.

KHAZAR UNIVERSITY'S FOREIGN STUDENT PRESENTS

A second-year student from Iraq, enrolled in the Faculty of Engineering and Applied Sciences, Ali Musa Abdulkerim (majoring in Computer Engineering) is an amateur photographer. Ali presents his photographs shot in Baku and Iraq.



















VƏTƏNPƏRVƏRLIK

(hekayə)

Yukio Misima

Yukio Misima 1925-ci il, yanvarın 14-də anadan olub. 1947-ci ildə Tokio Universitetinin hüquq fakültəsini bitirib. On altı yaşında ilk hekayəsini çap etdirib. 1949-cu ildə yazdığı "Maskanın etirafları" romanı yazıçıya uğur qazandırıb. "Yasaq rənglər", "Sevgiyə təşnə", "Qəmirsiz ulduz", "Mərkiz de Sad", "Qəzet", "Yaym ortasında ölüm" və s. əsərlərin müəllifidir. 1970-ci il noyabrın 28-də intihar edib. 1988-ci ildə Yukio Misima adına mükafat təsis edilib.

1936-cı il fevralın iyirmi səkkizində, məlum hadisələrin üçüncü günü, sui-qəsdçilər arasında ən yaxın dostlarının olması xəbərindən sarsılan qvardiya nəqliyyat batalyonunun poruçiki Sindzi Takeyama qiyamın yatırılması əmri ilə barışa bilməyib öz malikanəsində (Esuya rayonu, Aoba küçəsi, ev 6) xarakiri elədi. Xanımı Reyko da sevimli ərinin hərəkətini təkrarladı. Poruçikin vida məktubunda cəmi bir cümlə vardı: "İmperator ordusuna eşq olsun!"

Reyko da özündən sonra məktub qoymuşdu; həyatla, valideynlərindən belə tez vidalaşdığı üçün onlardan üzr istəyirdi. Məktub bu sözlərlə bitirdi: "Bir zabit arvadının hər an hazır olacağı gün yetişdi". Bu mətanətli cütlüyün son dəqiqələri daş ürəkləri də riqqətə gətirdi. Poruçikin otuz bir, Reykonun iyirmi üç yaşı vardı. Toylarından heç yarım il də keçməmişdi.

Nikah mərasimində iştirak edənlər, ən azı, toy şəkillərini görənlər bu yaraşıqlı cütlüyün gözəlliyinə heyran olmuşdular. Hərbi mundirli poruçik sağ əlini qılıncın qəbzəsinə qoymuş, sol əlində furajkasını tutaraq gəlinin yanında məğrur dayanmışdı. Üzündən sərtlik yağırdı, geniş açılmış gözləri gəncliyə xas cəsarət və saflıqla parıldayırdı.

Ağappaq toy kimonosu geymiş gəlinin cazibəsini təsvir eləməyə söz yetməzdi. Çatma qaşlar, iri gözlər, zərif burun, dolu dodaqlar... bütün bu cizgiləri isə Reykonun nəcib görkəmini tamamlayırdı. Kimonosunun qolundan çıxmış yelpik tutan əl çox məsum görünür, zərif barmaqlar gül ləçəklərini andırırdı.

Ər-arvad intihar edəndən sonra insanlar bu xatirə şəklinə baxıb köks ötürür, ilk baxışda ideal görünən cütlüyün gözə gəldiyini söyləyirdilər. Qızılı boyalı örtüyün qarşısında donub-duran gənclər ölümün gerçək simasını sanki öz gözləri ilə görürdülər.

Təzə evlilər qudalardan birinin – general-leytenant Odzekinin axtarıb tapdığı Aoba küçəsindəki malikanədə yerləşmişdilər. Əslində, "malikanə" sözü bir az böyük səslənir. Bu, kiçik bağçalı, çox da böyük olmayan bir ev idi. Birinci mərtəbədəki iki otağa, demək olar gün işığı düşmürdü. Buna görə də yataq otağını (bu, həm də qonaq otağı idi) ikinci mərtəbədə düzəltmişdilər. Qulluqçuları yox idi, ev işləri ilə Reyko özü məşğul olurdu.

Vətənin çətin günləri olduğu üçün toy səyahətindən imtina eləməyə qərar vermişdilər. Gənclər ilk gecəni öz evlərində keçirmişdilər. Yatağa girməzdən öncə poruçik qılıncı qınından çıxarıb dizinin üstünə qoymuş, Reykoya uzun bir nitq söyləyib axırda da soruşmuşdu: "Zabit arvadı, ərinin hər an həlak olacağına hazır olmalıdır; bu, sabah da baş verə bilər, biri gün də. De görüm, həmin o qaçılmaz gün yetişəndə qorxudan titrəməyəcəksən ki?"

Reyko ayağa qalxıb dolabın alyirtməsini çəkmiş, ordan anasının verdiyi ən qiymətli cehizi – xəncəri çıxartmışdı. Əri kimi, o da xəncəri dizinin üstünə qoymuşdu. Beləcə, ər-arvad arasında sözsüz razılaşma

əmələ gəlmiş və poruçik bir daha gənc arvadını anamağa ehtiyac duymamışdı.

Toydan sonrakı bir neçə ayda Reyko daha da gözəlləşdi, yağışdan sonra çıxan ay kimi işıq saçmağa başladı.

İkisi də cavan və güclüydü; ürəkləri ehtirasla dolub-daşırdı. Sevişməkçün çox vaxt heç gecəni də gözləmirdilər, işdən qayıdan poruçik toz-torpaqlı mundirini çıxarmağa imkan tapmamış özünü arvadının ağuşuna atırdı. Reyko da ona eyni ehtirasla cavab verirdi. Evliliyin ilk ayında o, səadətin izaholunmaz həzzini dadmışdı, ərinin də xoşbext olduğunu bilirdi. Reykonun ağappaq, gözəl vücudu sevgidən şəhvətlə alışıb-yanırdı. Gənclər, onları ən son həzz anında belə tərk etməyən inanılmaz nəvazişlə bir-birini əzizləyirdilər. Təlimlərdə qısamüddətli istirahət zamanı poruçik avradını düşünürdü; Reyko evdə tək qalanda sevimli ərinin obrazını daim önündə görürdü. Toy şəklinə nəzər salmaq kifayət edirdi ki, bu xoşbəxtliyin yuxu olmadığına inansın. Bir neçə ay əvvələ kimi yad olan bir kişinin, indi dünyasını işıqlandıran günəşə çevrilməsi ona qətiyyən təəccüblü görünmürdü. Onların ər-arvad münasibətləri dərin əxlaqi təmələ söykənirdi, çünki imperatorun qəbul etdiyi qanunda da deyilirdi ki, ərlə arvad tam bir harmoniya içində yaşamalıdır

Reyko heç nədə ərinin əleyhinə getmir, ona etiraz eləmirdi və poruçikin ondan narazı qalmağa bir əsası yox idi. Birinci mərtəbədəki qonaq otağında, mehrabın üzərində imperator ailəsinin rəsmi qoyulmuşdu. Hər səhər poruçik işə getməzdən əvvəl onlar bu rəsmə təzim edirdilər. Reyko mehrabın qarşısındakı dibçəkdə əkilmiş müqəddəs sakaki ağacını sulayırdı. Ağacın yarpaqları daim təzə-tər olurdu.

Poruçikin evi mətbuat naziri Saytonun malikanəsinin yaxınlığında olsa da, fevralın iyirmi altısı sübh tezdən ər-arvad güllə səslərini eşitmədi. Bu dəhşətli epizod on dəqiqədən çox çəkmədi. Poruçiki atışma səsləri yox, sübhün qarlı alaqaranlığını yarıb həyəcan xəbəri verən şeypurun səsi oyatdı. O, yerindən dik atıldı, dinməz-söyləməz formasını geyinib, avradının uzatdığı qılıncı götürdü və özünü qar basmış küçəyə atdı. Fevralın iyirmi səkkizi günü axşama qədər Reyko onu görmədi; nələr baş verdiyini isə radiodan eşitdi.

Xəbərlərin xülasəsindən öyrəndi ki, sui-qəsdçilər arasında ərinin yaxın dostları da var. Bu məlumat bütün şübhələrini dağıtdı. İndi o, səbirsizliklə imperatorun mövqeyini gözləyirdi, hər şeydən göründüyü kimi, əvvəl "milli dirçəliş hərəkatı" olaraq başlayan üsyana sonradan biabırçı "qiyam" damğası vurulmaqdaydı. Poruçikin xidmət etdiyi hərbi hissə barədə heç bir məlumat yox idi. Qara bürünmüş şəhər, hərbi əməliyyatların başlayacağını hər an gözləyirdi. Fevralın iyirmi səkkizi qürubçağı qapının bərkdən döyüldüyünü eşidəndə Reykonun qorxudan ürəyi titrədi. Özünü dəhlizə atdı, titrək əlləriylə qıfılı açdı. Tutqun şüşənin arxasında qaralan kölgə susurdu; Reyko ərini o saat tanıdı. Qapının rəzəsi heç vaxt belə ağır olmamışdı; heç cür açılmaq istəmirdi. Qapı açılar-açılmaz əynində xaki rəngli şinel olan, çəkmələri qarla örtülü poruçik özümü içəri saldı, dərhal da qapını bağlayıb, cəftəni çəkdi. Reyko bu jestin mənasını dərhal anlamadı.

– Axşamın xeyir, – Reyko təzim elədi

Poruçik salamı almadı, qılıncını açıb soyunmağa başladı. Reyko ona kömək etdi. Şinel nəm və soyuq idi; quru, günəşli günlərdəki kimi tövlə iyi vermirdi. Şinel Reykoya qeyri-adi dərəcədə ağır göründü. O, şinelli əsilqandan asdı, qılıncı və qayışı qoltuğunun altında sıxıb, ərinin ardınca aşağı mərtəbədəki kiçik qonaq otağına endi. Poruçikin tük basmış üzü lampanın gur işığında Reykoya nəsə yad göründü. Onun yanaqları batıb qəralmışdı. Adətən, xidmətdən evə yaxşı ovqatda qayıdarkən poruçik ev paltarını geyinər, arvadından dərhal yemək gətirməsini tələb edərdi. Bu gün isə elə formadaca masa arxasında oturdu və başını məyus halda aşağı saldı.

Reyko süfrə açmağın vaxtı olub-olmadığını soruşmadı. Bir qədər susandan sonra əri ağır-ağır dilləndi:

– Mənim heç nədən xəbərim olmayıb. Məni çağırmayıblar. Yəqin, ona görə ki, təzə evlənmişəm. Kano, Xomma, Yamaquti... ordadı.

Adları çəkilən bu alyanaqlı gənc zabitlər – ərinin tez-tez onlara qonaq gələn dostları – bir anlığa Reykonun gözləri qarşısında canlandı.

– Sabah əlahəzrətin münasibəti açıqlanacaq, – poruçik sükutdan sonra sözünə davam elədi. – Onları qiyamçı elan edəcəklər. Mən öz əsgərlərimi onların üstünə aparmağa məcbur olacam... yox, bunu eləyə bilmərəm. Bacarmaram... Mühafizədə məni əvəz edib, bu gecəni evdə keçirməyimə icazə verdilər. Sabah

səhər, yəqin ki, hücum eləməli olacağıq. Reyko, buna gücüm çatmaz.

Reyko onunla üzbəüz oturmuşdu, ancaq gözlərini qaldırmırdı. Ərinin ona intihar qərarını çatdırmaq istədiyini yaxşı başa düşürdü. Qərar artıq verilib. Səsindəki qətiyyət dəyişmirdi, hər sözünün arxasında ölüm dayanmışdı. Poruçik mənəvi əzablarından danışırdı, amma ürəyi tərəddüd etmirdi.

Sonra otağı dağ çeşmələrinin suyu kimi təmiz, şəffaf bir sükut bürüdü. İkigünlük fasiləsiz işgəncədən sonra evində gənc və gözəl arvadı ilə üz-üzə oturan poruçik ilk dəfə ruhunda bir dinclik hiss etdi. Başqa izahata gərək qalmadığını başa düşdü – arvadı hər şeyi anlamışdı.

– Belə... – Poruçik gözlərini qaldırdı; iki gecə yuxusuz qalmasına baxmayaraq, baxışları itti və aydın idi. İndi o baxışlar Reykonun üzünə dikilmişdi. – Bu gecə xarakiri edəcəyəm.

Reyko qımıldanmadı. Onun iri gözlərində elə bir gərginlik vardı ki, sanki bu baxışlar elə indicə zəng kimi şiddətlə cingildəyəcəkdi.

– Mən hazıram, – hardan-hara cavab verdi. – İcazə ver, mən də sənin kimi eləyim.

Poruçik bu baxışların gücü altında əzildiyini hiss eləyirdi. Sayıqlayırmış kimi, sözlər ağzından öz-özünə tökülürdü:

– Yaxşı. Birlikdə olarıq. Amma istəyirəm mənim necə öldüyümü görəsən. Razısan?

Arvadının bu dəhşətli qərara belə asanlıqla razılaşması heç özünə də aydın deyildi. Amma sözlər dodaqlardan tökülüdükcə, ikisinin də ürəyini qəribə bir xoşbəxtlik hissi bürüdü. Ərinin ona göstərdiyi etimad Reykonu mütəəssir eləmişdi. O, bir poruçik üçün ölüm ritualının nöqsansız keçməsinin nə qədər vacib olduğunu gözəl anlayırdı. Xarakiri zamanı mütləq şahid olmalıydı və ərinin məhz onu seçməsi Reykoya böyük hörmətdən xəbər verirdi. Üstəlik, arvadının verdiyi vədi yerinə yetirib-yetirməyəcəyini görmək imkanından özünü məhrum etməsi, ona olan etibarın göstəricisiydi. Hərçənd, adi, xoflu ər olsaydı, Reyko əvvəl ölməliydi – ikili intiharlarda, adətən belə olur. Poruçik hesab edirdi ki, Reykonun birlikdə keçirdikləri ilk gecədə içdiyi andı təsdiq edən bu qərar aldığı tərbiyənin nəticəsidir. Belə düşünmək ona qürur verirdi. Özünəvurğunluq hissindən məhrum olmuş poruçikin ağlına da gəlmirdi ki, arvadı ölüm qərarını ancaq ona olan sevgisinə görə verib. Hər ikisinin qəlbini dolduran sevinc o qədər böyük və səmimiydi ki, üzləri təbəssümdən nurlanmışdı. Reykoya elə gəlirdi, sanki daha bir nikah gecəsi yaşayacaqlar. Qarşıda nə ağrı, nə ölüm – yalnız sonu görünməyən bir sonsuzluq vardı.

– Vanna hazırdı, çimməcəksən?

– Hə.

– Bəs yemək necə, şam edəcəksən?

Bu sözlər o qədər sakit, o qədər rahat deyildi ki, poruçik bir anlığa baş verənlərin öz təxəyyülünün məhsulu olduğunu düşündü.

– Yemək, yəqin ki, lazım deyil. Amma sake içmək pis olmaz.

– Yaxşı.

– Əvvəl vanna, sonra sake, sonra da... Yuxarıda, yataqda.... – poruçik yavaşca qulağına pıçıldadı. Reyko astaca başını tərpətdi.

O, cəld mundirini çiynindən atdı, vanna otağına keçdi. Suyun şırıltısına qulaq asdı. Reyko qonaq otağında kürəni yandırıb sakeni qızdırırdı. Sonra ərinin xalatını, paltarlarını gətirdi, suyun isti olub-olmadığını soruşdu.

Buxardan dumanlanmış güzgüyə diqqətlə baxan poruçik ülgücü pörtmüş sifətində ehtiyatla gəzdirirdi. Tezliklə bu sifətdə ölüm maskası donub qalacaqdı, buna görə də onu kəsiklərlə eybəcərləşdirmək gərək deyildi. Səliqə ilə qırxılıb cavanlaşmış sifət sanki şəfəq saçdı, ziyasından elə bil köhnə güzgü də işıqlandı. Nur saçan gəncliklə ölümün bu ittifaqında sözlə ifadə olunmayan bir zəriflik vardı. Doğrudanmı bu gözəl cizgilərin üzərinə tezliklə ölüm kölgəsi düşəcək?! Artıq indidən sifətinin yarısı elə bil poruçikə aid deyildi və həlak olmuş əsgər heykəlinə bənzəyirdi. Gənc zabit bir anlığa gözlərini yumdu. Dünya qaranlığa qərq oldu – demək, ancaq dirilərin görməsi mümkündür.

Poruçik vanna otağından çıxanda hamar sifəti göy rəngə çalırdı. Keçib kürənin yanında oturdu. Reyko hər şeyi hazırlamış, hətta özünü səliqəyə salmağa da vaxt tapmışdı. Yanaqları xəfifcə qızarmışdı, nəm dodaqları parıldayırdı. Poruçik arvadının üzündə zərrə qədər kədər nişanəsi görmədi. Reykonun mətanətindən razı qalan zabit bir daha seçimində yanılmadığını düşündü. Piyaləni başına çəkib yenidən

doldurdu və arvadına uzatdı. Reyko bu vaxtadək şakenin dadını bilmirdi;

– İtaətkarcasına dodaqlarına yaxınlaşdırıb ehtiyatla içdi.

– Yanıma gəl, – Poruçik onu çağırdı.

Reyko ərinə yaxınlaşdı, əyildi, poruçik onu qucaqladı. Tez-tez qalxıb enən sinəsi şakenin alovlandırdığı sevinclə kədərin qarışığı içində döyünüb qabarırdı. Poruçik üstdən aşağı arvadının gözlərinə baxdı. Bu, onun görüb-görəcəyi son qadın, son insan sifəti idi. Bir daha görməyəcəyi gözəl mənzərəni seyr edən seyyah kimi tələsmədən, diqqətlə arvadının sifətindəki bütün cizgilərə tamaşa elədi. Poruçik baxır, baxmaqdan doymurdu: yumşaq dodaqlar bu gözəlliyin soyuq cizgilərini isidirdi. Əyilib o dodaqları öpdü. Arvadının sifət əzələləri tərpənməsə də, qapalı gözlərinin kirpikləri arasından yaş süzüldüyünü gördü.

"Yatağa gedək", – pıçıldadı, amma Reyko əvvəlcə vanna qəbul eləmək istədi. Poruçik qaz sobasının qızdırdığı yataq otağına tək qalxdı, qollarını geniş açıb yatağa uzandı.

Pəncərənin altından avtomobil ötübkeçdi. Qar basmış körpünün üstündə sürüşən şinlərin səsi eşidildi. Siqnal səsi evin divarlarında əks-səda verdi. Həyat öz axarıyla davam edirdi, ancaq bura, bu otaq tənha adaydı. Bu otaqdan o tərəfdə poruçikin fərayini verdiyi rahat bir ölkə vardı. Onun uğrunda həyatını fəda eləmişdi. Bəs bu vətən onun yolunda özünü fəda edənin ölümünü görəcəkmi? Qoy görməsinlər. Müharibə meydanında şərəflə vuruşmaq, şücaət göstərmək poruçikə qismət deyilmiş. Onun qəlbinin cəbhə xətti məhz burdan keçirdi.

Pilləkənlə qalxan Reykonun addım səsləri eşidildi. Köhnə, əyri pillələr arvadının ayaqları altında cırıldayırdı. Poruçik bu səsi xoşlayırdı, çox vaxt yatağında uzanıb köhnə pilləkənin bu xoş cırıltısını intizarla gözləyərdi. Fikirləşəndə ki, bu səsi son dəfə eşidir, ona diqqət kəsildi; hər anları zövq almaq istəyirdi, anlar, dəqiqələrsə sanki bərq vururdu.

Reyko hamam xalatının üstündən toranlıqda qarayа çalan qırmızı qurşaq bağlamışdı. Poruçik əlini qurşağın düyümünə atdı, Reyko da ona kömək elədi və qurşaq ilan kimi sürüşüb yerə düşdü. Əri əllərini xalatın geniş qollarından içəri soxdu, Reyko dirsəkləri ilə onun ovuclarını bədəninə sıxdı və əndamına toxunan əllərin hərarətindən, bu hərarətin gətirdiyi ehtirasdan ütrəməyə başladı.

Şölə saçan qaz sobasının ətrafında necə lüt qaldıqlarını heç özləri də hiss eləmədilər. Ürəkləri də, bədənləri də, düşüncələri də yalnız bir şeyə köklənmişdi: bu, sonuncu dəfədir. Sanki gözəgörünməz bir fırça onların cisminə yazırdı: "SONUNCU DƏFƏ"...

Poruçik arvadını sinəsinə sıxdı, cavanlar bir-birini öpüşlərə qərq elədilər. Poruçikin dili Reykonun ağzının içində ora-bura sürüşürdü. Ölümün anlaşılmaz olan əzabları onların hisslərini daha da şiddətləndirir, hər toxunuş kürədə qızdırılmış dəmir kimi yandırırdı. Yaxınlaşmaqda olan ölüm iztirabları bu zövq anlarına görünməmiş bir nəciblik, bir paklıq gətirmişdi.

– Bədənini mənə göstər. Axırıncı dəfə tamaşa etmək istəyirəm, – poruçik pıçıldadı və lampanın abəjurunu elə çevirdi ki, işıq yatağa düşsün.

Reyko gözlərini yumub səssizcə uzanmışdı. Yandan düşən işıqda ağappaq bədənin hamar və enişçıxışlı səthi daha cazibədar görsənirdi. Poruçik xudbincəsinə bir məmnunluqla düşündü ki, birinci ölməklə bu gözəlliyin necə məhv olduğunu görməyəcək. Tələsmədən bu əsrarəngiz mənzərəni yaddaşına köçürdü. Bir əliylə Reykonun saçını tumarlayır, o biri əlini gözəl yanağında gəzdirirdi. Əyilib üzündən, gözlərinin qıraqlarından öpdü. Açıq, geniş alın... Nazik qaşların altındakı uzun kirpiklərinin kölgəsi... Düz, qüsursuz burun... Dolu, sanki fırçayla çəkilmiş gözəl dodaqlar, ağappaq inci dişlər... Yanaqların xəfif qızartısı və kiçik, zərif çənə... Poruçik elə bil ölümün parıltılı simasını görürdü. Bir azdan iti xəncərin batacağı ağ boynu qızardanacan acgözlüklə öpməyə başladı. Sonra yenə dodaqlara qayıtdı, dodaqlarını eyni ritmlə, eyni nəvazişlə Reykonun dodaqlarında gəzdirməyə başladı. Gözlərini yumsan, elə bilərdin ki, bütün dünya dalğaların üzərində yüngülcə yırğalanır.

Sonra poruçikin dodaqları itaətkarcasına baxışlarının ardınca süründü, gözünə dəyən yerləri öpməyə başladı. Qabarıq sinənin öpüşlərdən bərkimiş giləsi dağ gilənarının tumurcuqlarına bənzəyirdi. Çiyinlərdən başlanan qollar biləklərə doğru uzandıqca incəlirdi. Nazik barmaqlar – toy şəkillərində yelpik tutan həmin barmaqlar – poruçikin qızmış dodaqlarından gizlənərək utancaq şəkildə ovuclara sığınmışdı. Sinə ilə qarın arasındakı çökəklik elastikliyin və gücün vəhdətini təcəssüm etdirirdi; aşağıda budların sərt

döngələri başlayırdı, ancaq burda da bədən öz təmkin və intizamını qoruyub saxlayırdı. Qarnın gözqamaşdıran ağlığı lampanın boğuq işığında dərin boşqaba doldurulmuş südü xatırladırdı; tən ortada yağış damcısının izi kimi balaca çökək görünürdü. Aşağıda, kölgənin sıxlaşdığı yerdə yumşaq tüklər qaralırdı; ehtirasla dolu bədənlərin açıq-aşkar titrəməsindən təravətli qoxu gəlirdi.

Reyko titrək səslə pıçıldadı:

–Mən də istəyirəm... Son dəfə...

Birinci dəfə idi ki, ərindən belə bir şey xahiş edirdi; elə bil indiyəcən gizlətdiyi türkəklik üzə çıxmışdı. Əri dinməz-söyləməz kürəyi üstə uzandı. Ağappaq qadın bədəni azca yuxarı qalxdı; hər şeydə ərini təkrar eləmək arzusunda idi. Reyko baxışlarını ondan ayırmayan ərinin gözlərini barmaqları ilə ehmalca, nəvazişlə qapadı. Sifəti qızaran Reyko ani riqqətlə ərinin başını sinəsinə sıxdı. Qısa vurulmuş saçlar iynə kimi dərisinə batdı. Burnu soyuq, nəfəsi isti idi. Reyko bir az aralandı, gözlərini bu comərd simaya zilləndi. Qalın qaşlar... Örtülü göz qapaqları... İri burun... Bir-birinə sıxılmış gözəl dodaqlar... Tərəqdən sonra parıldayan göyümtül yanaqlar... Reyko ona əziz olan bu cizgiləri öpdü. Sonra enli çiyinlərini, boynunu, bir cüt qalxanı xatırladan sinə əzələlərini öpdü. Bu əzələlərin kölgə saldığı qoltuqlarının altından şirin, həm də kədər duyulan bir qoxu gəlirdi, – gənc adamın ölümünü qəribə bir şəkildə hiss elətdirən qoxu. Poruçikin bədəni yetişmiş buğda rəngində idi, qabarıq əzələlər qarnını örtmüşdü. Reyko bu möhkəm bədənə baxıb onu doğrarmış şəkildə, iztirab içində təsəvvür elədi. Gözündən yaş süzülməyə başladı, ərinin qarnını xeyli öpdü.

Dərisinə damcıların töküldüyünü hiss eləyən poruçik sanki yeni bir güc aldı, artıq istənilən əzaba dözə biləcəyinə şübhə etmirdi.

Belə bir vidadan sonra ər-arvadın necə xoşbəxt olduqlarını təsvir eləmək artıqdı. Poruçik acı-acı ağlayan arvadını güclü qolları ilə qucaqladı. Bir-birinə sarıldılar. Reyko titrəyirdi. Tərli bədənlər bir-birinə qovuşmuşdu, daha heç kim onları ayıra bilməzdi, onlar vahid bir varlığa çevrilmişdilər. Reyko sanki yüksəklikdən uçuruma düşür, sonra yenidən pərvazlanıb uçurdu. Poruçik öndə gedən alay bayraqdarı kimi tövşüyürdü. Çılğın ehtiras dalğaları bir-birini əvəzləyir, bu dalğaları aşmaq arzusunda olan gənc ər-arvad yorğunluq hiss eləmirdi.

Nəhayət, poruçik Reykonun bədənindən aralandı. Qətiyyən ona görə yox ki, doymuşdu, sadəcə, buna məcbur idi, çünki gücünü tükətmək istəmirdi; xarakiri zamanı bu güc ona lazım olacaqdı. Həm də sevgidən ifrat dərəcədə doymaq, bezmək istəmirdi. Ərinin aralandığını görən Reyko həmişəki kimi onun iradəsinə tabe oldu. İkisi də əl-ələ tutub arxası üstə uzanmış, gözlərini qaranlıq tavana zilləmişdilər. Sakit gecəydi, küçədə hərəkət dayanmışdı. Yesuya stansiyasından gələn tramvay və qatar səsləri parkın gizlətdiyi Akasaka sarayına çatmırdı. Şəhərin bu dinc hissəsində hardasa iki düşmən qruplaşmasının bu saat döyüşə hazırlaşdığına inanmaq çətin idi.

Ər-arvad daxildən gələn hərarətin verdiyi həzzin təsiri altında səssizcə uzanıb, yenidən cənnət məmnunluğu dəqiqələrini yaşayırdılar: ürəkdondurən hər anın, hər unudulmaz öpüşün, cismani toxunuşun, səadət hissinin gətirdiyi məmnunluğun... Amma tavandan asılmış ölüm, baxışlarını düz onların üzünə tuşlamışdı. Zövq bitdi və bir də qayıtmayacaq. Hər halda, o anda ikisi də eyni şeyi fikirləşdi: hətta uzun bir ömür yaşasaydılar belə, heç vaxt bu cür ekstaza çatmayacaqdılar. Bir-birinə bərk-bərk çarpazlanmış barmaqlar bir azdan açılacaq. Tavandakı bu taxta nəcisləri bir də olmayacaq. Ölüm yaxında olduğunu hər an daha aydın hiss etdirirdi. Artıq vaxt qalmamışdı. Bütün cəsarətlərini toplayıb özləri ölümə sarı getməliydilər.

– Hə, hazırlaşmaq lazımdır, – sükutu poruçik pozdu. Bu sözlərdə bir qətiyyət vardı, amma Reyko indiyə qədər ərinin belə yumşaq, mehriban səslə danışdığını eşitməmişdi.

Ayağa qalxdılar. Görüləsi çox işləri vardı. Poruçik heç vaxt arvadına yatağı yığmağa kömək eləməmişdi, indi isə özü dolabı açıb pambıq döşəyi ora qoydu. Sobanı söndürdü, lampanı yerinə çəkdi. Otaq əvvəlki səliqəli görkəmini aldı, elə bil kimisə gözləyirdilər.

–Burda nə qədər yeyib-içmişik. Kano ilə, Xomma ilə, Noquti ilə...

–Hə, onlar məclisləri sevirdilər.

– Eybi yox. Tezliklə onlarla yenidən görüşəcəyik. Səni də özümlə gətirdiyimə görə mənimlə əylənəcəklər.

Aşağı enməzdən qabaq poruçik dönüb səliqəli, işıqlı otağa baxdı. Dostları – gənc zabitlərin simaları, onların söhbətləri yenə gözünün önündə canlandı. O gözəl zamanlarda heç ağlına da gətirməzdi ki, günlərin bir günü bu otaqda qarnını yırtacaq.

Pilləkənlə aşağı enib hazırlığa başladılar. Poruçik vanna otağına keçdi, Reyko onun hamam xalatını, hərbi formasını və rişəstalanmış qurşağını gətirdi. Masanın üstünə ölümqabağı məktub yazmaqçün kağız qoydu, qələmin ucunu çərtməyə başladı. Artıq nə yazacağını bilirdi. Barmaqları qələmi güclə hərəkətə gətirirdi, mürəkkəbqabındakı su da tündləşmişdi. Reyko barmaqların rəvan hərəkəti ilə kağızın yeknəsəq xuşluğunun bir məqsədə – ölümün yaxınlaşmasına xidmət eləməsi haqda düşünməyi özünə qadağan elədi. Yox, bu, gündəlik ev işlərindəndi, sadəcə, ölümlə görüşə qədər qalan vaxtı keçirmək vasitəsidir. Yüngülcə sürüşən qələmin üzüyolaltığı, mürəkkəb qoxusunun daha kəskin yayılması – bütün bunlar sözlə ifadə olunmayacaq dərəcədə məşum görünürdü.

Poruçik vanna otağından çıxdı, mundiri çılpaq bədəninə geyindi. Dinməzcə oturub, qələmi əlinə götürdü, qarşısındakı təmiz vərəqə baxdı.

Reyko ağ kimonosunu geyinməyə getdi. Geri qayıdanda poruçik vida məktubunu bitirmişdi: "İmperator ordusuna eşq olsun! Poruçuk Sindzi Takeyama"

Reyko ərinin qarşısında oturub vida məktubu yazdı. Poruçik arvadının ağ barmaqlarının kağız üzərində cızdığı heroqliflərə diqqətlə baxırdı. Sonra qılıncını belinə bağladı, Reyko isə xəncəri kəmərin altına keçirdi. Əllərində vida məktubu mehraba yaxınlaşdılar, baş əyib səssizcə dua elədilər. İşıqları söndürüb ikinci mərtəbəyə qalxdılar. Pilləkənin ortasında geri döndü, ağ kimonoda arxasınca gələn arvadının gözəlliyinə heyran oldu.

Məktubu qonaq otağında yanlarına qoydular. Poruçik divardan kakedziki çıxarmaq istədi, amma fikrini dəyişdi. Orda müqəddəs bir söz yazılmışdı: "Sədaqət". Fikirləşdi ki, əgər üstünə qan sıçrasa, bu heroqlifləri yazmış general-leytenant Odzeki onu bağışlayar.

Poruçik yerə oturub qılıncı dizinin üstünə qoydu. Reyko yaxındakı tatəminin üstündə oturdu. Kimonosu ağ olduğundan dodağındakı al boya daha parlaq görünürdü. Ər-arvad yanaşı oturub bir-birinin gözünə baxırdı. Ərinin dizləri üstündəki qılınca baxdıqca ilk gecələrini xatırladı və dözülməz bir ağrı hiss elədi. Poruçik səsini qısıb dedi:

– Mənim seksundantım yoxdu, ona görə dərin kəsəcəm. Yəqin ki, ağır səhnə olacaq, amma qorxma. İstənilən ölümü kənardan müşahidə eləmək ağırdı. Bu, sənin cəsarətini azaltmasın, yaxşımı?

– Yaxşı, – deyə Reyko başını aşağı əydi.

Ağappaq geyinmiş arvadının gözəl qamətinə baxan poruçik qəribə bir məstlik hiss elədi. İndi arvadı əsgər andını yerinə yetirən ərini başqa keyfiyyətdə görəcək. Çünki onu gözləyən ölüm heç də döyüşdəki ölümdən əskik deyil. O, arvadına göstərəcək ki, hərb meydanında özünü necə aparardı.

Bir anlığa poruçikin təxəyyülündü maraqlı fantaziyalar bürüdü. Döyüşdə həlak olmaq və gözəl arvadının gözləri qarşısında intihar eləmək – o, sanki hər iki ölümlə eyni zamanda ölməyə hazırlaşmışdı və bu hissiyyat ona olmazın həzz verirdi. Arvadının gözləri qarşısında ölmək sahil küləyinin qoxusunu udmaq kimi bir şeydi. Ona başqaları üçün əlçatmaz görünən uğur miras qalmışdı. Gəlinə oxşayan ağ, hərəkətsiz qamət poruçik üçün uğrunda yaşadığı hər şeyi – imperatoru, vətəni, savaş bayrağını təcəssüm etdirirdi. Bütün bu müqəddəs simvollar ona arvadının aydın gözləri ilə baxırdı.

Reyko ölümə hazırlaşan ərinə baxıb fikirləşdi ki, dünyada ondan gözəl varlıq çətin tapıla. Mundir ona həmişə yaraşırdı. İndi isə qaşlarını çatıb, dodaqlarını sıxaraq ölümün gözünə baxan ərinin üzü qəmlisiz görünürdü.

– Vədə tamamdır, – poruçik dedi.

Reyko başını yerə əyib ona təzim elədi. Elə bil gücü tükəndi, dikələ bilmədi. Ağlamaq olmazdı, üzü ənlik-kirşanlıydı. Yaş gözündən öz-özünə süzülürdü. Nəhayət, dikəldi, göz yaşının dumanlı pərdəsi arxasından gördü ki, əri qılıncın tiyəsini ağ əski ilə sarıyır. Polad tiyənin iyirmi santimetri açıq qaldı. İşini bitirib qılıncı yerə qoydu, ayaqlarını çarpazladı, mundirinin qabağını açdı. Daha arvadına baxmırdı. Barmaqları ağır-ağır mundirin düymələrini açırdı. Əvvəl qarabuğdayı sinəsi, sonra qarnı göründü. Kəmərini açıb şalvarını aşağı endirdi, belindəki ağappaq qurşaq göründü. Qurşağı bir az aşağı saldı və tiyənin sarınmış hissəsini əlində tutdu. Poruçik gözlərini qarnından çəkmirdi, sol əliylə bir az aşağını

sığallayırdı. Qılıncın kifayət qədər iti olub-olmadığını yoxlamaq üçün şalvarını bir az da aşağı salıb dərisini çərtdi, budundan qan süzüldü. İlk dəfə ərinin qanını görən Reykonun nəfəsi daraldı, onun üzünə baxdı. Poruçik məmnunluqla kəsiyə baxırdı. Reyko yüngüllük hiss elədi, hərçənd bu rahatlığın yalançı olduğunu bilirdi.

Qəfildən poruçik başını qaldırıb sərt qartal baxışlarını arvadına dikdi. Tiyəni qarnına dirədi, dikəldi ki, bədəni qılıncdan asılı qalsın. Kitelin altında çiyin azələlərinin gərilməsindən hiss olunurdu ki, poruçik var qüvvəsini toplayıb. O, qılıncın ucunu qarnının sol tərəfinə, mümkün qədər dərinə batırmaq niyyətindəydi.

Qəzəbli bir səs otağın sükutunu pozdu.

Hərçənd poruçik zərbəni özü vurmuşdu, amma yenə də ona elə gəldi ki, bu dəmir parçasını bədəninə başqa birisi batırdı. Gözləri qaraldı, bir an nə baş verdiyini anlamadı. Polad tiyənin çılpaq hissəsi sona qədər bədəninə yeridi, tiyədən yapışmış əli qarnına dirəndi. Ağlı başına gəldi, fikirləşdi ki, tiyə qarın boşluğuna girib. Nəfəs almaq çətinləşirdi, sinəsi ağır-ağır enib-qalxırdı. Ola bilməzdi ki, bütün bunlar onun bədənində baş versin. Elə bilirdi ki, hardasa uzaqlarda dəhşətli ağrı yerin təkindən alov kimi püskürür. Ağrı, görünməmiş sürətlə yayılırdı. Poruçik qışqırmamaq üçün alt dodağını dişlədi.

"Demək xarakiri belə olurmuş", – fikirləşdi. Elə bil göy qübbəsi başına uçmuşdu, dünyanın altı üstünə çevrilmişdi. Tiyə qarnına girənə qədər sarsılmaz hesab elədiyi iradəsi, cəsarəti indi uzun, polad telə çevrilmişdi və ondan möhkəm yapışmaq lazım idi. Bu düşüncə ürəyini qüssə ilə doldurdu. Qılıncı tutan əli də, ağ parça da qan içindəydi; qurşağı al-qırmızı rəngə boyanmışdı. "Qəribədir, – fikirləşdi, – bu qədər ağrı çəksəm də, dünyanın əvvəlki dünya olduğunu aydın görürəm".

Qarnını yırtıb, bənizi ağaran (elə bil üzünə ağ pərdə çəkmişdilər) andan Reyko özümü ərinin üstünə atmaq istəyi ilə savaşırdı. Bunu eləmək olmazdı, oturub baxmalıydı. O, şahiddir; bu vəzifəni ona əri həvalə etmişdi. Əri lap yaxındaydı: onun dişlədiyi dodağının, sifətinin ağrıdan necə əyildiyini aydın görürdü. O sifətdə ağrının dözülməz olduğu yazılmışdı və Reyko əzizinə necə kömək edəcəyini bilmirdi. Poruçikin alnında tər damcıları parıldayırdı. Gözlərini qıydı, sonra açdı. Baxışları hər zamankı aydınlığını itirmişdi, hansısa heyvanın baxışları kimi boş və mənasız olmuşdu. Ağrıdan üzünə yay günəşinin işığı kimi bir nur yayılmışdı, amma bunun Reykonun ürəyini paralayan dərdlə heç bir əlaqəsi yoxuydu. Ağrı şiddətlənirdi. Poruçik artıq başqa dünyanın adamıydı, varlığının mahiyyəti ağrıda cəmlənmişdi. Reykoya elə gəldi ki, əri ağrı qəfəsinə salınmış əsirdi və ona əli çatmaz. Axı özü ağrını hələ hiss eləməmişdi; onun çəkdiyi əzab fiziki ağrı deyildi. Elə bil kimsə əri ilə onun arasında şüşə divar çəkmişdi.

Toydan sonra Reykonun həyatının bütün anlamı əri idi. Ərinin nəfəsi onun nəfəsiydi, indi isə ondan ayrıydı, əri öz ağrılarının əsiriydi.

Poruçik qarnını eninə kəsməyə çalışırdı, amma qılınc içəridə ilişib qalmışdı və yumşaq, elastik bir mənəə ona irəlliləməyə imkan vermirdi. Başa düşdü ki, qılıncdan fikəlli yapışmaq və bir az da dərinə itələmək lazımdı. Elə də elədi. Tiyə gözlədiyindən daha ağır yeriyirdi, sağ əlinin bütün gücünü vermək lazım gəlirdi. Ağrı sel kimi axırdı. Elə bil hər dəfə nəfəs alanda, hər dəfə nəbzi atanda poruçikin içi, varlığını parçalayan əzəmətli bir zəng, yox, minlərlə zəng kimi çalınır, uğuldayırdı. Artıq iniltiləri gizləmək mümkün deyildi. Ancaq poruçik qəflətən gördü ki, tiyə göbəyinə çatıb və cəsarətin yeni dalğasını məmnunluqla hiss elədi. Yarasından getdikcə daha çox qan axırdı, döşəmə qıpqırmızı olmuşdu. Xəki rəngli şalvarından qan çay kimi şoruldayırdı. Bir damla qan quş olub uçdu və yaxında oturmuş Reykonun ağ kimonosunun ətəyinə qondu. Poruçik tiyəni qarnının sağ tərəfinə gətirib çatdıranda, artıq elə də dərində deyildi, qana bulaşdığından sürüşkən olmuş qəbzəsi yaradan çölə çıxmışdı. Birdən öyüməyə başladı, batıq səslə nərildədi. Ağrı daha dözülməz oldu, kəsiyin kənarları tamam aralandı, içalatı bayıra töküldü, elə bil qarnı da öyüyürdü. Sahibinin iztirabı bağırsaqların sanki vecinə deyildi; elə bil sağlam içalatı həyat eşqilə parıldayır, azadlığa çıxırmış kimi sürüşüb çölə tökülürdü..

Poruçikin başı aşağı düşmüşdü, gözləri qıyılmışdı, ağzından köpük gəlirdi. Ətraf qan idi, o da qan gölünün içində oturmuşdu. Bədəni boşalmış, əliylə döşəməyə dayaqlanmışdı. Üfunət iyi otağı bürümüşdü; poruçik ara vermədən qaytarır, çiyinləri titrəyirdi. Qarnını yırtıb bağırsaqlarını çölə tökən tiyə əlində quruyub qalmışdı.

Birdən dikəldi. Onun inanılmaz gücünü nəylə müqayisə etmək olardı? Qəfil hərəkətdən arxaya

gedən başı divara dəydi.

Reyko oturduğu yerdəcə donub qalmışdı. Qan onun dizlərinə sarı çay kimi axırdı. Sərsəm kimi gözlərini qaldırdı. Gördüyü sifət canlı insan üzünə oxşamırdı. Gözləri çuxura düşmüş, dərisi meyit kimi qurumuşdu, ağzı da, bir zamanlar çox gözəl olan almacıq sümüyü də palçıq rəngdəydi. Poruçikin sağ əli ağır qılıncı güclə qaldırdı. Hərəkətləri yaylı kuklalarınkı kimi ağır və qətiyyətsiz idi. Qılıncın ucunu boğazına dirəmək istəyirdi. Reyko ərinin həyatındakı bu sonuncu, inanılmaz dərəcədə çətin hərəkətləri dalğıncasına izləyirdi. Boğazına dirəmək istədiyi sürüşkən tiyə hədəfdən yayınır, poruçikin gücü getdikcə tükənirdi. Tiyə baftanın sərt tikişinə dirənmişdi. Köynəyinin düyməsi açılmışdı, amma yaxalığı hələ də boynunu örtürdü.

Reyko daha bu mənzərəyə baxa bilmirdi. Ərinin köməyinə yetişmək istəyirdi, amma yerindən qalxması müşkül idi. Qan gölünün içində uzanan ərinə sarı irələdi. Ağ kimono al-qırmızıya boyandı. Ərinə yetişib yaxalığının kənarlarını aralədı; bu, ona edə bildiyi ən böyük kömək idi. Nəhayət, tiyənin titrəyən ucu açıq boyuna dirəndi. Reykoya elə gəldi ki, ərini irəliyə itələyən o oldu. Amma yox, poruçik son gücünü toplayıb özünü tiyənin ucuna yıxdı. Polad tiyə onun boynunu dəlib arxadan çıxdı. Qan fəvvarə vurdu və poruçikin səsi kəsildi

Reyko pilləkənlə asta-asta aşağı endi. Qandan islanmış ayaqqabıları döşəmənin üstündə sürüşürdü. İkinci mərtəbədə ölü sükut hökm sürürdü. İşığı yandırdı, qaz kranını bağladı, manqaldakı közün üstünə su çiləd. Sonra kiçik otaqdakı güzgünün qarşısına keçdi, kimonosunun ətəklərini qaldırdı. Qan ləkələri ağ parçada qəribə izlər buraxmışdı. Yerə çökdü, ərinin qanı ilə islanmış ətəyi ayaqlarını üşüdürdü. Bir xeyli müddət kosmetika ilə məşğul oldu; yanaqlarına ənlik, dodaqlarına al-qırmızı boya çəkdi. Bu qrim əzizi üçün deyildi, tezliklə tərk edəcəyi dünya üçündü. Ayağa qalxanda güzgünün qarşısındakı tatamisinin üzərində qan izləri qaldı, amma heç dönüb baxmadı da.

Sonra gənc qadın varına otağına yönəldi, amma dəhlizdə ayaq saxladı. Axşam ölümə hazırlaşan poruçik qapını qıfıllamışdı. Bir müddət bu mürəkkəb dilemma qarşısında fikrə getdi: qıfılı açım, ya açmasın? Əgər qapı bağlı olsa, qonşular onların ölümündən gec xəbər tutacaq. Reyko insanların onları çürüyəndə tapmalarını istəməzdi. Fikirləşdi ki, yaxşısı budur, qapını açsın. Açarı burdu, qapını bir az aralı qoydu. Soyuq hava dəhlizə doldu. Gecəyarısı küçə boşalmışdı, qarşıdakı evi dövrəyə almış ağacların başı üzərində ulduzlar parıldayırdı.

Yuxarı mərtəbəyə qalxdı. Tabisinin üstündəki qan qurumuşdu, ayağı daha sürüşmürdü. Pilləkənin ortasında burnuna kəskin qoxu gəldi. Poruçik üzü üstə qan gölünün içində uzanmışdı. Qılıncın ucu indi boynunun arxasından daha çox çıxmışdı. Reyko otağı bürümüş qan gölünün üstündən sakitcə adladı. Yerdə, ərinin yanında oturdu, əyilib yandan üzünə baxdı. Geniş açılmış gözləri ovsunlanmış kimi bir nöqtəyə zillənmişdi. Ərinin həyat əlaməti olmayan başını qaldırdı, qoluyla qanlı üzünü silib dodaqlarına vida öpüşü qondurdu. Sonra cəld ayağa qalxdı, dolabı açdı, ordan ağ örtük və ip götürdü. Kimonosunu əzməsin deyə, örtüyü kəmərinin qırağına doladı, ipi onun üstündən kip bağladı. Ərindən bir addım kənarda oturdu. Kəmərin altından xəncərini çıxarıb parıldayan polada baxdı, tiyəni dilinə sürtdü. Həmər metalın tamı şirintəhər idi.

Gənc qadın bir an belə tərəddüd etmədi. Fikirləşdi ki, ərinin çəkdiyi əzablar bir azdan onunku olacaq. Əziziylə birləşməsinin artıq an məsələsi olduğunu düşünəndə ürəyi sevinclə doldu. Poruçikin əyilmiş üzündəki iztirabda izaholunmaz, sirli bir şey vardı. Reyko indicə bu sirri çözəcəkdi. Ona elə gəldi ki, ərinin inandığı böyük mənanın şirin tamlı acısını dadacaq. Əgər əvvəllər bu mübhəm elmin dadını ərinin danışıqlarından bilirdisə, indi artıq bunu özü hiss edəcəkdi.

Və xəncəri boğazına dirəyib itələdi. Yarası lap kiçik oldu. Başına hərarət axdı, əlləri əsdi. Qəfildən tiyəni yana itələdi. İçəridən boğazına isti nəsə doldu, gözünün önündə hər şey al-qırmızı rəngə boyandı: bu, yarasından fışqıran qan idi.

Reyko bütün gücünü topladı və xəncəri qəbzəsinə kimi boğazına sapladı.

Tərcümə: Güldəstə

EUROMONITOR INTERNATIONAL

TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

"EUROMONITOR INTERNATIONAL" ŞİRKƏTİNİN HESABATINDA 2017 - Cİ İLDƏ TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB

Siyahıya Honkonq başçılıq edir. 2017-ci ildə şəhərə 25,7 milyon turist gəlib.

İkinci yerdə Banqkok (23,3 milyon), 3-cü yerdə isə London qərarlaşıb (19,8 milyon).

İlk onluğa həmçinin Sinqapur, Makao, Dubay, Nyu-York, Şençjen və Kuala-Lumpur daxil edilib.

SİNQAPUR




ESAH CAFE














DREAMWORKS
SHREK
4D



XATİRƏSİ QƏLBİMİZDƏ DAİM YAŞAYACAQ

Esmira Qurbanova 1987-ci il iyulun 26-da dünyaya göz açmışdı. 2018-ci il aprelin 7 - də qəfil gələn ölüm onu aramızdan apardı. Yoxluğu ilə hələ də barışa bilmirik...

Esmira məktəbli olanda anası dünyaya uşaq gətirərkən vəfat etmişdi. Esmira da öz anasının taleyini yaşadı. Ana sevgisindən məhrum böyüyən Esmira öz övladı Nurayı da ana sevgisindən məhrum qoydu.

Orta məktəbi bitirdikdən sonra Xəzər Universitetinə daxil olmuş, ali məktəbi bitirdikdən sonra isə 2010-cu ildən Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzində fəaliyyətə başlamışdı.

İşinə hər zaman məsuliyyətlə yanaşardı, tələbələrlə xoşrəftar və xoşünsiyyət idi. Universitetin əməkdaşları ilə də mehriban idi. Bir sözlə, hər kəsin sevimlisi idi.

Kollektivimizin isə həddən artıq sevimlisi olan Esmira həlim, yumşaq, körpə bir uşaq qədər məsum, saf, ürəyində az da olsa kin olmayan gülərüzün biri idi. Hər kəsin dərdinə kədərlənən, sevincinə sevinən biri.. Anidən kiçik hədiyyələrlə təəccübləndirən biri...

Küsməyi belə bacarmırdı, heç kəsi də özündən küsülü qalmağa qoymurdu. Qısacası, həyat dolu biri idi.

Esmiranın xatirəsi qəlbimizdə daim yaşayacaq. Özündən sonra xatirə qoyub getdiyi əziz balası Nuray xoşbaxt olsun! Qarşıda həyatın gətirəcəyi çətinliklərdə Tanrı ona yardımçı olsun!

Kitabxana İnformasiya Mərkəzinin kollektivi

ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitetinin kollektivi universitetin Kitabxana İnformasiya Mərkəzinin əməkdaşı

Esmira Qurbanovanın

vəfatından kədərləndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

XƏZƏR UNİVERSİTETİNİN
DÜNYA MƏKTƏBİ

BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dinlindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

Ünvan:

Bakı, Əcəmi Naxçıvani 9
Tel.: (+994 12) 563 59 40 /47 /48
Mob.: (+994 70) 844 08 88

Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

E-mail: info@dunyaschool.az
http: // dunyaschool.az

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seçl

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

5 QRUP

- Dizayn